**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVANDA MƏKTƏB TƏHSİLİ VƏ PEDAQOJİ FİKRİN İNKİŞAF TARİXİ (XIX ƏSR VƏ XX ƏSRİN ƏVVƏLLƏRİ)

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Vahid Məmməd oğlu Rzayev**

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**N A X Ç I V A N – 2 0 2 2**

Dissertasiya Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

pedaqoji elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

pedaqoji elmlər doktoru, dosent
**Həsən Bayram oğlu Bayramov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının bazasında yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi BED 2.40 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
_________________ pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının
elmi katibi
_________________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri:
_________________ pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bu gün ölkənin regionlarında təhsilin və pedaqoji fikrin keçilmiş yolunun öyrənilməsi, tarixən formalaşmış ictimai-mədəni sərvətlərimizin daha dərindən, hərtərəfli araşdırılması işi xüsusi əhəmiyyətə malikdir. Regionlarda məktəb və pedaqoji fikrin inkişaf mərhələlərini, onun spesifikasını araşdırıb üzə çıxarmaq, ölkə pedaqoji fikrində yeri və mövqeyini müəyyənləşdirmək bir çox cəhətdən vaciblik qazanır. Əvvala, regionlardakı təhsil tarixinin mütərəqqi əsasda inkişafını və bu inkişafa təsir göstərən amilləri, maarif sahəsində verdiyi bəhrələri aşkara çıxarmaq günümüzün, zəmanəmizin pedaqogika elmimiz ücün aktuallaşdirdığı məsələlərdir.Digər tərəfdən, Naxçıvanda məktəb və pedaqoji fikrin öyrənilməsi hər şeydən əvvəl, ölkə pedaqoji fikir tarixinin tamlığı və zənginləşməsinə xidmət edir, mütərəqqi ənənələrdən bu gün də istifadə imkanlarının müəyyənləşdirilməsinə əsaslı köməklik göstərir.

Naxçıvanda tərbiyə və təlim təcrübəsinin tarixi özünəməxsus, spesifik xüsusiyyətlərə malik olsa da, bu ərazidə formalaşmış məktəb və pedaqoji fikir Azərbaycan pedağojisinin tərkib hissəsidir. Bu təhsil-tərbiyə təcrübəsi hər şeydən əvvəl regionun köklü, yerli əhalisinin - azərbaycanlıların milli və mədəni xüsusiyyətləri ilə şərtlənir. Regiondakı təhsil müəssisələrinin xüsusilə, milli məktəblərin inkişaf meyillərinin öyrənilməsi Azərbaycan məktəbinin və pedaqoji fikrinin yaranması və inkişaf mərhələlərinin cox əhəmiyyətli hissəsinin öyrənilməsi işinə tamamlayıcı, zənginləçdirici mahiyyət verir.

Naxçıvan tarixin keşməkeşlərinə həmişə mərdliklə sinə gərmiş, əyilməz, bölünməz bir bölgə kimi Azərbaycanın tarixində şərəfli və əhəmiyyətli yer tutmuşdur.Bu isə göstərir ki, tədqiqat problemi bu günkü gündə pedaqoji mahiyyəti ilə yanaşı, həm də sosial - siyasi əhəmiyyətə malikdir. Bölgənin Azərbaycan üçün əhəmiyyətini ümummilli lider Heydər Əliyev çox parlaq bir şəkildə ifadə edərək söyləmişdir: *“Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, cox zəngin tarixə malik olan bir hissəsidir, 5000 il tarixi olan*

*Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir."*[1]

XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda təhsil, məktəb və pedaqoji fikrin inkişaf tarixi, bu inkişafın hansı obyektiv və subyektiv səbəblərlə əlaqədar olduğu, həmçinin təhsilə xalqın dini-etnik xüsusiyyətləri və psixologiyasından irəli gələn münasibətlər kifayətqədər öyrənilməmişdir. Daha dəqiq desək, bəhs olunan bu məsələlər üzrə müəyyən sistemə malik, ümumiləşdirilmiş səviyyədə əsərlər yoxdur. Problemin öyrənilməsi istiqamətində görülən işlər içərisində pedaqoji hadisə və faktlara düzgün münasibət, həqiqi elmi yanaşma nümayiş etdirmək cəhətdən də arzu olunan səviyyədən danışmaq olmaz.

Tədqiqatlarda XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqji fikrin inkişafı tarixinə aid ilkin fikir və mülahizələr ötən əsrin ikinci yarısından başlanmışdır. Bu cəhət daha çox tarixi və ədəbi - mədəni araşdırmalarda, qismən də elmi-pedaqoji tədqiqatlarda öz əksini tapmışdır. Problemin öyrənilməsi işində pedaqoji yönlü tədqiqatlar kimi professor Hüseyn Əhmədovun və professor İbrahim Mollayein əsərlərini göstərmək olar. Professor Hüseyn Əhmədov "XIX əsr Azərbaycan məktəbi"[2] adlı fundamental monoqrafiyasında Azərbaycan məktəb təhsilinin XIX əsr üzrə geniş, əhatəli mənzərəsini yaratmış, bu dövrü öyrənməyin metodoloji və pedaqoji əsaslarını müəyyənləşdirmişdir ki, bu da özündən sonrakı tədqiqatçıların yolunun işıqlandırılması, məktəb və pedaqoji fikir tariximizin daha da zənginləşməsi işinə əsl xidmət nümunəsidir. Monoqrafiyada Azərbaycanın digər bölgələrindəki təhsil müəssisələri kimi Naxçıvanda fəaliyyət göstərən məktəblərdən də bəhs edilmişdir. Professorun Naxcıvan qəza məktəbi haqqında ayrıca

[1] Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubley iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Şərq qapısı" qəzeti, Naxçıvan, 1999, 12 oktyabr

[2] Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006

məqaləsi də nəşr olunmuşdur.[3] Bu məqalə ümumilikdə qəza məktəbinin bölgədə təhsilin inkişafında rolunu, problemin öyrənilməsi zəruriliyini, aktuallığını elmi mühitə çatdırmaq məqsədini izləyir. Məqalə sonralar bir neçə dəfə nəşr olunmuşdur

Professor İbrahim Mollayev Naxçıvanda məktəb və pedaqoji fikrin inkişaf tarixi ilə bağlı bir sıra tədqiqatların müəllifidir. Bu tədqiqatları içərisində "Məhəmməd Tağı Sidqi Səfərovun pedaqoji görüşləri"[4] mövzusunda yazdığı dissertasiyası böyük pedaqoqun təlim - tərbiyəyə aid nəzəri görüşlərinin ilk və fundamental təsviridir. Tədqiqatı Naxçıvanda ana dili məktəbi kimi "Əxtər" və "Məktəbi Tərbiyə"nin milli təhsil tariximizdə tutduğu yeri lazımi səviyyədə, elmi əsaslarla işıqlandıran bir tədqiqat kimi qiymətləndirmək olar. Tədqiqatçı-alimin "Naxçıvan MSSR-də xalq maarfinin inkişafı"[5] adlı kitabçası XX yüzilliyin sovetlər dönəminə həsr olunmuşdur. Burada qismən də olsa həmin əsrin ilk illərində Naxçıvanda fəaliyyət göstərən ana dili məktəbləri haqqında məlumat verilmişdir.

Regiondakı məktəblərin, xüsusi ilə məktəbdar müəllimlərin, maarifçi - pedaqoji ideyaların daşıyıcıları olan ziyalıların fəaliyyəti və baxışları haqqında ədəbi - mədəni tədqiqatlarda mühüm əhəmiyyətə malik fikir və mülahizələr vardır. Təhlillərimiz göstərir ki, Naxçıvan ictimai-mədəni mühitinin bu istiqaməti üzrə araşdırmalar daha çoxdur. Bu araşdırmalar Naxçıvanda ədəbi mühitin tədqiqi ilə bağlı olsa da, maarifçi - pedaqoji həyatın öyrənilməsində də əhəmiyyətlidir. Akademik İsa Həbibbəylinin, professorlardan Hüseyn Həşimovun, Əsgər Qədimovun' filologiya elmlər doktoru Fərman Xəlilovun və digər tədqiqatçıların araşdırmalarında öyrəndiyimiz problemin bu və ya digər cəhətləri öz əksini tapmışdır.

---

[3] Əhmədov H.M. Naxçıvanda dünyəvi təhsil məktəbi, Seçilmiş pedaqoji əsərləri,12 clddə, I cild., Bakı: Təhsil, 2006, s. 320-324

[4] Mollayev İ.A. M.T.Sidqinin pedaqoji görüşləri. Bakı: Elm və təhsil, 2016

[5] Mollayev İ.A.Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı: Bilik, 1983

Bu qrupa daxil etdiyimiz tədqiqatlar içərisində akademik İsa Həbibbəylinin əsərlərini ayrıca qeyd etmək lazımdır.[6] Müəllifin Cəlil Məmmədquluzadənin mühiti və müasirləri fonunda Naxçıvan ictimai-mədəni mühitinin böyük bir ziyalı dəstəsinin maarifçilik fəaliyyəti, məktəbdarlıq təcrübələri haqqında araşdırmaları bölgədə məktəb tarixi, maarifçi - pedaqoji düşüncənin ümumi mənzərəsini yaratmaq baxımından xüsusi əhəmiyyətə malikdir. Akademik İsa Həbibbəyli resbublikanın və xarici ölkələrin arxiv, muzey və kitabxanalarından çoxlu sayda toplanmış sənədlər və materiallar əsasında maarifçi - ziyalıların Naxçıvan mühitindəki ictimai-ədəbi fəaliyyəti ilə yanaşı, pedaqoji işdə və maarifçi tərbirlərdə iştirakını da üzə çıxarmış, bu istiqamətdə apardığı tədqiqatların nəticələrindən elmi - pedaqoji mühitin faydalanması üçün əlverişli zəmin yaratmışdır.

Müstəqillik dövrünün ərəfəsi və müasir şəraitdə bölgənin bəhs olunan dövrünə aid yeni, elmi əhəmiyyətinə görə seçilən bir sıra tarixi tədqiqatlar da işlənib hazırlanmışdır. Bu əsərlər, həmçinin ədəbiyyatşünaslıq, pedaqoji və digər elmi istiqamətlərdə hazırlanmış tədqiqatlar artıq Naxçıvanşünaslığın yaranması və inkişafından bəhs etməyə imkan verir. Tarixi tədqiqatlar içərisində Azərbaycan MEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Zəhmət Şahverdiyevin " Naxçıvan bölgəsi XIX əsr və XX əsrin əvvəllərində"[7], tarix üzrə fəlsəfə doktoru Səid Sadıqovun " Naxçıvan Muxtar Resbublikasının tarixindən"[8], V. A. Quliyevanın " Роль и позиция мусульманского духовенства в социально – культурной жизни Нахичевани, Эриванской губернии и

[6] Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə mühiti və müasirləri, Bakı, Azərnəşr,1997; Həbibbəyliİ.Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı: Nurlan, 2007; Həbibbəyliİ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015

[7] Şahverdiyev Z .Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, Bakı: Elm, 2008

[8] Sadiqov S. H. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: İrşad mərkəzi, 1995

Зангезура в XIX начале XX вв"[9], Xumar Vaidovanın" История города Ордубад в X1X начеле XX вв"[10], Əliqulu Fərəcovun " Ордубад, Историко-экономический очерк» [11] adlı tədqiqatlarını və digərlərini göstərmək olar.

Azərbaycan Milli Elmlər Akaemiyasının müxbir üzvü Zəhmət Şahverdiyevin Naxçıvan tarixinə aid göstərilən tədqiqatında bölgədə fəaliyyət göstərən təhsil müəssisələrinin struktur - qurluşuna, tipinə və təhsilləndirmə səviyyəsinə münasibətdə həqiqi elmi obyektivlik nümayiş etdirilmiş, buradakı təhsil müəssisələri tarixşünaslığımızın verdiyi imkanlar, prinsiplər daxilində şərh olunmuşdur. Əsərdə "Naxçıvan bölgəsində mədəniyyətin inkişafı" adlı ayrıca fəsildə min ildən artıq bir tarixə malik olan məktəb və mədrəsə təhsilinə çarizmin münasibəti və özünün müstəmləkə məqsədlərinə uyğun gələn təhsil siyasətinin həyata keçirilməsinə cəhdləri sistemli və elmi əsasda işıqlandırılmışdır.

Göstərilən tədqiqatlarda XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda fəaliyyət göstərən tədris müəssisələrinin adı, tipi, məktəblərin məzmun - istiqamətini əks etdirən anlayışlardan əsasən düzgün istifadə edilmişdir

1837-ci ilin martından fəaliyyət göstərmiş Naxçıvan qəza məktəbi təhsil tariximizdə dövrünə görə yeni inkişaf meylləri ilə, təhsilin dünyəvi məzmunu ilə seçilən tədris müəssisəsi kimi tədqiqatçıların diqqətini cəlb etmiş, kifayətqədər olmasa da məktəbin fəaliyyət göstərdiyi dövr ərzində bu və ya digər məsələlərə aydınlıq gətirmək üçün araşdırma obyektinə çevrilmişdir. Bununla belə bu tədris müəssisəsinin meydana gəlmə şəraiti, təlim-tərbiyə prosesinin məzmun xüsusiyyətləri, şagird kontingentinin tərkibinin müxtəlifliyi

---

[9] Кулиева В .А. Роль и позиция мусульманского духовенства в социальнокультурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX начале XX вв. Баку: Елм, 1999

[10] Ваидова Х.Р. История города Ордубад в X1X начале XX вв. Баку: Нурлан, 2007

[11] Фараджев А.С. Ордубад. Историко-экономический очерк. Баку: Азгосиздательство, 1970

və bu müxtəlifliyi yaradan səbəblər, məktəbin müəllimləri və onların şəhərin, ümumən regionun mədəni həyatında iştirakı və s. məsələlər ya heç işıqlandırılmamış, yaxud da səthi ilənilmiş, bəzi hallar da isə təhriflərə yol verilmişdir.

XIX əsrin ortalarına yaxın yeni ziyalı zümrəsi Rusiyadakı Qərb yönümlü mütərəqqi pedaqoji ideyaları mənimsəməklə ana dilinin tədrisi və təlimin ana dilində aparılması ideyasının reallaşdırılması işinə əsaslı təsir göstərə bildilər. Azərbaycanin digər bölgələrində olduğu kimi Naxçıvanda da bu istiqamətdə müəyyən canlanma yaranmış, yenilik əlamətləri ilə dərinləşən və zənginləşən işlər görülmüşdür. Görkəmli maarifçi, pedaqoq-məktəbdar Məhəmməd Tağı Sidqi Səfərovun unikal təcrübələri Azərbaycanın digər bölgələrindəki məktəblərdə istifadə olunan təlim və tərbiyə usullarının yeni məzmun keyfiyyətləri ilə zənginləşməsində xüsusi əhəmiyyətə malik olmuşdur. Tədqiqatda M.T. Sidqinin "Əxtər" və "Məktəbi-Tərbiyə"si haqqında yeni, ilk dəfə tədqiqata cəlb edilən sənədlər əsasında bəhs olunmuşdur.

Bütün dövrlərdə pedaqoji nəzəriyyə və praktikanin qarşısında təhsil sisteminin təkmilləşdirilməsi, yetişən nəslin təlim və tərbiyəsinin səmərəliliyinin yüksəldilməsi durur ki, bu da zəmanəmizin, bu günümüzün tələbi və şərti kimi sabaha, gələcəyə hesablanmış məqsəddir, ülvi bir bir yoldur. Qədim dövrlərdən indiyə kimi Naxçıvanda məktəb təhsilinin və pedaqoji fikrin meydana gəlməsi və inkişafı mərhələlərinin öyrənilməsi xalqımızın zəngin pedaqoji irsi, tərbiyə haqqında görüşləri, təlim, təhsil nəzəriyyəsi və təcrübəsi ilə daha dərindən tanışlığa imkan verir, bu böyük milli mənəvi xəzinənin zəngin çalarlar qazanmasını layiqli tövhələrlə zənginləşdirir.

Beləliklə, göstərməliyik ki, XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqoji fikrin inkişaf tarixinin araşdırılması, burada müəllim-ziyalılarn maarifçi fəaliyyətinin öyrənilməsi vacib olan bir problem kimi qarşıda durur. Naxçıvanda xalq təhsili və pedaqoji fikrin problemləri üzrə görkəmli ziyalıların, müəllimlərin, yazıçı və şairlərin ideya-əqidə birliyi, maarifçi baxışları, Azərbaycan pedaqoji fikrinə verdiyi tövhələr lazımi səviyyədə öyrənilməmişdir. Fikrimizin məntiqi yekunu kimi qeyd

edək ki, bəhs etdiyimiz problem araşdırma obyekti kimi həqiqətən də ciddi elmi tədqiqatlara layiqdir.

**Tədqiqatın obyekti** Naxçıvanda elm, təhsil və pedaqoji fikrin inkişaf tarixinin öyrənilməsidir.

**Tədqiqatın predmeti** XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqoji fikir tarixinin inkişaf xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi** XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda təhsilin təşkilinin obyektiv mənzərəsini aşkarlamaq, regionda təhsilin və pedaqoji fikrin spesifik xüsusiyyətlərini və qanunauyğunluqlarını, təzahür amillərini müəyyənləşdirmək və bu sahədə tədqiqatlarda yol verilmiş nöqsanları, ziddiyyətləri üzə çıxarmaq, çarizmin rus cəmiiyətinin həyat tərzinə uyğunlaşdırma səylərinin vasitəsi olan dövlət tədris müəssisələrinin, ana dili və rus-Azərbaycan məktəblərinin yaradılmasında, milli özünüdərkin yüksəldilməsində rolunu aydınlaşdırmaqdan ibarətdir.

Tədqiqatda belə bir ümumi məqsədin komponentlərinin təzahür formasını müəyyənləşdirmək üçün aşağıdakı **vəzifələrin** həllinə səy göstərmişik:

1.Qədim dövrlərdən XIX əsrə qədər məscid məktəblərinin dini maarifləndirmə və qismən də olsa dünyavi təhsillənmə funksiyasını, orta əsr pedaqoji fikrimizin, tərbiyə nəzəriyyəsinin ümumi xülasəsini verməklə XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda, həmçinin bütün İrəvan quberniyasında məktəb və mədrəsələrin ümumi vəziyyətini aydınlaşdırmaq, bu tədris müəssisələrinin yayılma arealının ilk mənbələr əsasında elmi təsvirini vermək, onlara dövlətin yerli idarəçilik orqanlarının münasibətini üzə çıxarmaq;

2.İmperiyanın müstəmləkə siyasətinə xidmət edəcək tədris müəssisələrində təhsil alan azərbaycanlıların və burada Azərbaycan dilinin tədrisi məsələlərini araşdırmaq, bu təhsil sistemində Naxçıvan qəza məktəbinin meydana gəlməsi və inkişafını öyrənmək;

3. XIX əsrin sonlarında və XX əsrin başlanğıcında meydana gəlmiş Ordubad şəhər və kənd ibtidai məktəblərinin (Yengicə, Nehrəm, Cəhri, Baş Noraşen və başqalarının) bölgədə milli tərkibinə görə azərbaycanlı uşaqların təhsilə cəlb edilməsi işində yeri və rolunu üzə çıxarmaq;

4.M.T.Sidqinin "Məktəbi Tərbiyə"si və sonuncu məktəbin əsasında oğlanlar üçün yaradılmış Naxçıvan rus - Azərbaycan məktəblərinin milli təhsilin, milli düşüncənin formalaşması və inkişafı yolunda yeri və rolunu aydınlaşdırmaq, qızlara dünyavi təhsil verən Naxçıvan rus - Azərbaycan qız məktəbinin yaranma və inkişaf tarixini tədqiq edib elmi dövriyyəyə çıxarmaq;

5. XIX əsrin sonları və XX əsrin əvvəllərində Naxçıvanda yeni pedaqoji ideyaların yayılması və inkişafını, daha doğrusu bölgənin maarifçi - ziyalı təbəqəsinin yeni düşüncə ocağı kimi məktəb təhsilini yaxşılaşdırmaq, savad təlimində ana dilinin rolu haqqında görüşlərini, bu sahədə göstərdikləri mübarizə əzmini işıqlandırmaq, onların bilavasitə Naxçıvan təhsilinin problemləri ilə bağlı fikir və düşüncələrini müəyyənləşdirmək;

6. Naxçıvanda təhsilin və pedaqoji fikrin tarixi ilə əlaqədar hadisələrin faktik ardıcıllığını yarada bilmək, regionda məktəblərin (xüsusi ilə milli məktəblərin) inkişafına siyasi hadisələrin, sosial - mədəni tədbirlərin təsirini müəyyənləşdirməyə səy göstərmək;

**Tədqiqatın metodları.**Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq dissertasiyada məntiqi, tarixi- müqayisəli, problemli - xronoloji, təhlil-tərkib, retrospektiv metodlarından istifadə olunmuşdur.

**Müdafiyəyə çıxarılan müddəalar**:

1. XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafını ictimai- siyasi şərait və bunun əsasında mədəni mühit şərtləndirmişdir.

2. XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafı yeni, min illərin ənənələrindən fərqli siyasi - iqtisadi, ictimai - mədəni dəyişikliklər şəraitində inkişaf etmişdir. Tədqiqatın əhatə etdiyi dövrdə təhsilin və məktəb sisteminin inkişafı cəmiyyətin mənəvi və mədəni tələbatının nəticəsi idi.

3. Sosial - mədəni amil (fenomen) kimi təhsil müəssisələri regionun həyatında və ictimai praktikada yeni görüşlərin, demokratik fikrin, milli oyanış hərəkatının inkişafında əhəmiyyətli rol oynamışddır.

4. Məktəb və pedaqoji fikrin inkişafı çoxnövlü hadisə olub məktəb quruculuğunun konkret tarixi təcrübəsinin təzahürü kimi üzə

çıxmış, struktur - məzmun baxımdan yeni əlamət və keyfiyyətlərlə zənginləşmişdir.

5. XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda yeni, mütərəqqi pedaqoji ideyaların yayılması regionda milli pedaqoji fikri və məktəb təcrübəsini dövrün tələbləri səviyyəsinə qaldırmaqla Azərbaycan məktəbinin və pedaqogikasının inkişafında müstəsna pol oynamışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiyada:

**-** XIX əsr və XX əsrin əvvəllərində Naxçıvan bölgəsində təhsilin və pedaqoji fikrin inkişaf dinamikasına aid materiallar kompleks şəkildə və sistem halında tədqiqata cəlb edilmişdir. Tədqiq olunan dövrə məxsus arxiv sənədləri və onların araşdırmaya cəlb olunma forması, həcmi, məzmun xüsusiyyətləri, bəhs olunan dövrün tədris müəssisələrinin tipi, dərəcələri və inkişaf mərhələləri,bütövlükdə tarixi-pedaqoji hadisələrin bir-biri ilə qarşılıqlı əlaqəli təsiri elmi əsasda, tarixi həqiqətlərə əsaslanmaqla öyrənilmişdir.Bu materiallardan elmi ədəbiyyatda istifadə edilməsi və ümumən mövzunun tədqiq olunma səviyyəsi problem kimi qoyulmuş və həll edilməsinə səy göstərilmişdir.

- Zəngin arxiv materialları, digər ilk mənbələr əsasında yazılmış dissertasiyada Naxçıvan diyarının məktəb və pedaqoji fikrinin çox əhəmiyyətli və mürəkkəb bir dövrü öyrənilməklə Azərbaycan təhsili və pedaqoji fikrinin inkişafında regionun ictimai - pedaqoji mühitinin yeri və mövqeyi araşdırılıb üzə çıxarılmışdır.

- Tədqiqatlarda ( ədəbiyyatşünaslıq, tarix, pedaqogika və digər elm sahələri üzrə) bir çox hallarda bəhs olunan dövrün müxtəlif səciyyəvi və müxtəlif məzmunlu tədris müəssisələri arasında fərqli xüsusiyyətlər nəzərə alınmamış, eyni tip tədris müəssisələri kimi qiymətləndirilmiş və beləliklə də elmi əsası olmayan fikir və mülahizələr irəli sürülmüş, bir sıra dolaşıqlara, səhvlərə, əsassız müdəaların yaranmasına yol verilmişdir. Tədqiqat zamanı bu cür səhvlərin aradan qaldırılmasına da səy göstərilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** .

Tədqiqat zamanı Naxçıvanda məktəb və pedaqoji fikirlə bağlı materiallar kompleks şəkildə öyrənilmiş, bu mənbələrin

pedaqogikaşünaslığımızda yeri və mövqeyi məsələsinə diqqət yetirilməklə:

a) Regiondakı ümumi təhsil müəssisələri, kənd ibtidai məktəbləri, milli məktəb nümunəsi kimi ana dili və rus - Azərbaycan məktəbləri, həmçinin xeyriyyəçilik məqsədləri daşıyan müxtəlif növ tədbirlərə ictimai - mədəni çərçivədə yanaşma nümayiş etdirilməsinə və beləliklə tədris - pedaqoji şərhinə (traktovkasına) səy göstərilmişdir;

b) XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məktəb və pedaqoji fikir tarixinin sosial- mədəni mahiyyəti təsvir edilmiş və əsaslandırılmış, problemin dövrü nəşrlərdə, normativ sənədlərdə əks olunma səviyyəsi aşkar edilmiş, bölgədə məktəb və pedaqoji fikrin inkişaf tarixi haqqında biliklərimiz zənginləşdirilmiş, möhkələndirilmişdir;

d) Nəhayət, dissertasiyada Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafına aid materiallardan istifadə edilərkən tədqiqatın konsepsiyasının müəllif variantı təqdim olunmuşdur.

**Tədqiqatın praktik əhəmiyyəti** ondadır ki, onun nəticələri və faktlarından:

- Tədris vəsaiti, monoqrafik tədqiqat, regionun kitabxanaları və muzeylərinin tarixi - pedaqoji bazasının formalaşdırılması sahəsində;

- Pedaqoji təmayüllü orta ixtisas tədris müəssisələrində və ali məktəblərdə, ixtisas artırma kurslarında, universitetlərin pedaqoji fakültələrində tədris olunan "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Naxçıvanda təhsilin tarixi", "Naxçıvan tarixi", "Tarixi diyarşünaslıq" kurslarında istifadə oluna bilər:

**Tədqiqatın abrobasiyası və tətbiqi.** Tədqiqatın əsas məzmunu müəllifin nüfuzlu elmi jurnallarda nəşr olunmuş 30-dan artıq (o cümlədən 3-ü xaricdə) məqalə, tezis və konfrans materiallarında, həmçinin "Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafı (XIX əsr və XX əsrin əvvəlləri)" adlı monoqrafiyasında, "Naxçıvanda qadın təhsili uğrunda mübarizə və Naxçıvan rus - Azərbaycan qız məktəbi", "XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr", "XIX əsrin sonları və XX əsrin əvvəllərində Naxçıvanda təhsil və redaqoji fikir") adlı kitablarda öz əksini tapmışdır.Dtssertasiya işi Naxçıvan

Dövlət Universitetinin "Pedaqogika və psixologiya"kafedrasında yerinə yetirilmişdir.

Dissertasiya giriş-30762 işarə, I fəsil-132010 işarə, II fəsil-148819 işarə, III fəsil-47924 işarə, IV fəsil-92816 işarə, V fəsil-119472 işarə, Nəticə-10975 işarə. Cəmi 582778 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya giriş, beş fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir. Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi müəyənləşdirilir, işin nəzəri-praktik əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan müddəalar və aprobasiyası barəsində məlumat verilir.

Dissertasiyanın I fəsli **"Naxçıvanda elm və təhsilin inkişafında məscid məktəbləri və mədrəsələrin rolu"** adlanır və iki paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı **"Qədim dövrlərdə və Orta əsrlərdə Naxçıvanda elmin və məktəb təhsilinin inkişafı haqqında"** adlanır. Fəslin **"Qədim dövrlərdə və Orta əsrlərdə Naxçıvanda elmin və məktəb təhsilinin inkişafı haqqında"** adlı birinci paraqrafında qədim tarixə malik Naxçıvanın elm və mədəniyyətinin, maarif və təhsilinin bir çox hadisələrindən, nadir nümunələrindən bəhs edilir. Tarixçi-alimlərin araçdırmaları göstərir ki, Gəmiqaya rəsmləri Naxçıvanın qədim sakinlərinin məişət və yaşam məqsədlərindən doğan bacarıqlara malik olduğunu, nizamlı, düşünülmüş davranış və hərəkətlərə yiyələndiyini əyani şəkildə sübut edən maddi-mənəvi sərvətlərdir.Gəmiqaya insanları rəsm yaratmaq sənətinin harmoniyasına aid bilik və təsəvvürlərə malik olmuşlar. Şəkli yazını qayalar üzərində rəsm edə bilməsi qədim insanların həyatında, məişətində, təcrübi iş, fəaliyyət prosesində bu işarələrin böyük əhəmiyyətə malik olduğunu göstərir. Tədqiqatçıların bir çoxu bu şəkli yazıları "tayfa savadı" adlandırırlar.

Naxçıvan bölgəsinin Mərənd, Urmiya, Təbriz kimi doğma yurd yerləri ilə yaxın ərazidə yerləşməsi Zərdüştlik dininin bu ərazidə yayılmasına zəmin yaratmışdır. Bu dini qanunlar külliyyatı zamanına görə çox mükəmməl tərbiyə, əxlaq kodeksləri kimi pedaqoji fikir

tariximizin ən qədim tərbiyə etiketləri sayıla bilər.

Axtarışlarımızın nəticəsi kimi üzə çıxarılan belə bir faktı da qeyd etmək yerinə düşər ki, elmdə Azərbaycanın Zərdüştlüyün yarandığı və yayıldığı məkan kimi göstərilməsi hələ XIX əsr rus şərqşünaslığında da aydın və könkret şəkildə ifadə olunmuşdur. Belə nümunələrdən biri Rusiya "Xalq Maarif Nazirliyinin jurnalı"nda professor Poqodinin "Avesta haqqında" adlı mühazirəsinin dərc olunmuş mətnidir.Mətndə müəllif Zərdüştlüyün Azərbaycanla bağlı olduğu haqqında qənaətini şox aydın şəkildə ifadə edərək yazırdı: "Zərdüştün nə vaxt yaşadığı və öz təlimini harada yaydığına aid fikirlər müxtəlifdir. Səlnaməçilərin bir qismi fars dövrü ilə bağlayır, məsələn, Yunan səlnaməçilərinə ( yazıçılarına) əsaslanaraq Qistasp Daranın zamanına, digərləri Midya ilə, Kiaksarın zamanına, Kirdən yetmiş il sonraya, üçüncü qism daha sonralara aid edirlər. Zərdüştün özü söyləmişdir ki, onun Vətəni Xəzər dənizinə tökülən Kür və Araz çaylarının arasındakı Azərbaycandır. Burada islahatçı və qanunlar yaradıcısı kimi tanınır. Lakin o burada qalmır, Xəzər dənizindən keçərək Şərq ölkələrinə-Baktiriyaya gedir, onun təlimini qəbul edib məmnuniyyətlə bütün İrana yayan hökmdar Qistaspın yanında yaşayır. Zərdüşt burada o zaman yaşamışdır ki, o vaxt Baktiriyada xüsusi Dövlət qurulmuşdu"[12].

Azərbaycanda İslamın qəbul edilməsi digər sahələrdə olduğu kimi ölkənin ictimai-mədəni həyatında yeni tarixi mərhələnin başlanğıcını qoydu.Yeni dinin əsasları ölkədə təhsili və pedaqoji düşüncənin yeni məzmun istiqamətinin müəyyənləşməsinə zəmin yaratdı. Öyrənmə ənənələrimizin yeni mərhələsinin başlanğıcı kimi dini-ideoloji təsisatların – məscidlər yanında məktəblərin, mühüm mədəniyyət mərkəzləri kimi böyük şəhərlərdə (Naxçıvan, Təbriz, Marağa, Şamaxı, Gəncə) ali tip tədris müəssisələrinin-mədrəsələrin geniş şəbəkəsinin yaranması dövrü başlandı.

XII əsrin 30-70-ci illərində Naxçıvan şəhəri xeyli inkişaf etmiş, Şərqin mədəni mərkəzlərindən birinə çevrilmişdir. XI əsrdə Qətran Təbrizi, Əsəd Tusi kimi dövrünün məşhur şairləri, yüksək istedada, dahilərə məxsus fəhm,  sövqtəbiiliyə malik Əcəmi Naxçıvani bu

---

[12] Министерства Народного Просвещения: Част шестая, Апрель, № 4, 1835, с. 132-133

qədim şəhərdə yaşamış, Şərq aləminə öz bilik və təcrübəsini buradan yaya bilmişdilər. Təbiiki, onların yenilik və orjinallıq keyfiyyətləri müxtəlif elm və sənətlərin nailiyyətlərinin mənimsənilməsi əsasında baş tuta, tamamlanana bilərdi.Belə bir cəhət ki, o zamankı Naxçıvan şəhərinin yüksək təhsil mühiti ilə əhatə olduğundan bəhs etməyə imkan verir.

Naxçıvan mədrəsələrinə dair Elxani fərmanını fikrimizi təsdiq edir. Fərmanda mədrəsədə təhsilin məzmunu, burada dərs deyən müdərrislərin, həmçinin tələbələrin hüquq və vəzifələri-mədrəsə daxili qaydalara əməl etmə prosedurları dəqiq şəkildə ifadə olunur ki, bu da hələ XIII əsrdə Naxçıvanda təhsilin çox yüksək səviyyədə inkişaf etdiyini göstərir[13].

Orta əsrlərdə Naxçıvanda bir çox mütəfəkkirlər, ədib və şairlər yaşayıb yaratmışdır. Onlardan bir çoxu bu torpaqda doğulub boya-başa çatsalar da, sonralar müxtəlif ölkələrə və böyük şəhərlərə gedərək İslam Şərqi mədəniyyətinin, elminin, təhsilinin inkişafında misilsiz xıdmətlər göstərmişlər. Naxçıvanın XIII – XIV əsr alimləri sırasında Nəsrəddin Tusi, Qazı Nəcməddin Əhməd ibn Məhəmməd, Həsən İbn Ömər Naxçıvani, Kamaləddin Əbülfəzail Məhəmməd ibn Əbülfəzail ən-Naxçıvani, Fəxrəddin Əbülfəzl Məhəmməd ibn Deyləm ən-Naxçıvani, Abdulla ibn Əhməd ət-Tusi ən-Naxçıvani, İbn Savəci Məhəmməd Səd ibn Məhəmməd, Fəxrəddin Hinduşah Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani,Əlaəddin Əbu Abdulla Məhəmməd ibn Əli ən-Naxçıvanini, Fəxrəddin Əbülqasim Əli ibn Tamam ibn Xələf ən-Nəsibi ən-Naxçıvanini və başqalarını qeyd etmək olar.

Övliyə Çələbi XVII əsrin ortalarında şəhərin abidələrindən bəhs edərkən, o Əcəminin yaratdığı türbələrdən danışır, 40 məscid, 20 karvansara, 1000 - ə qədər dükan, 7 hamam, 33 minarə olduğunu yazır. "Səyahətnamə"də Övliyə Çələbi Naxçıvan hamamlarından və

---

[13]Hüseynzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı, /Azərbaycan SSR EA Məruzələri, c. XXI, 1960, № 12 s.1268-1273

məscidlərindən heyranlıqla bəhs edir və qeyd edir ki, hamamların divarları kaşı ilə, döşəmələri isə mərmərlə örtülmüşdür[14].

Birinci fəslin ikinci yarımfəsli **“XIX əsr və XX əsrin əvvəllərində Naxçıvanda məscid məktəbləri və mədrəsələr”**adlanır. Göstərilir ki, məscid məktəbləri və mədrəsələr ümummüsəlman təhsil mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycanda savad təlimi və şəriətin əsaslarının öyrədilməsinin çox mühüm vasitəsi olmuş, zaman-zaman nəsillərin, böyük mütəfəkkirlərin ali mədrəsə təhsilinə, yaxud müstəqil şəkildə təhsillənmə yoluna işıq salmışdır. Bu məktəblər orta əsrlərdə də, Rusiyanın müstəmləkə işğalından sonrakı dövrlərdə də Azərbaycanın bölgələrində geniş yayılmış, yeni şəraitdə bu və ya digər səviyyədə öyrənmə funksiyasını davam etdirmişdir.

Bu dövrdə bölgədə ənənəvi məktəblərimizin tarixini əks etdirən məxəzlərin xronologiyasını yaratmış olsaq, burada XIX əsrdə Naxçıvan məscid məktəbləri haqqında mənbələr kimi V.Qriqoryev, O.S.Yevetski, İ.İ.Şopen, N.İ.Voronov, N.Zeydlis və başqalarının tarixi-statistik nəşrlərini xüsusi qeyd etmək lazımdır. “Статистическое описание Нахичеванской провинции” adlı kitabda Naxçıvan şəhərinin məscidləri və onların nəzdindəki məktəblər haqqında müəyyən məlumat əldə etmək olur. Müəllifin qeydlərindən aydın olur ki, “*Şəhər əhalisinin demək olar ki, əksəriyyətinin uşaqları hər gün qədim məscidlərdən birinə toplaşır ki, bura onların cəlb edildiyi tədris müəssisəsi sayılır*”[15].Müəllif Ordubad şəhərində fəaliyyət göstərən tədris müəssisələrindən heyranlıqla danışaraq yazırdı: *“Məktəb binaları xüsusilə gözəldir...Aşağı mərtəbədə mollalar yaşayır və uşaqlara təlim verirlər...Demək olar ki, şəhərin hər bir küçəsində məscid var, lakin böyük məscidlər ikidir”* [16].

---

[14] Salamzadə Ə.R. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı: İşıq, 1976, s.82

[15] Статистическое описание Нахичеванской провинции, сост. В.Г. СанктПетербург, 1833, 41 s.

[16] Yenə orada, s. 141

“Обозрение Российских владение за Кавказом…” adlı nəşrdə göstərilir ki, Naxçıvan şəhərində iki məscid fəaliyyət göstərir. Məscidlərdən biri əhalinin dua və ibadətlə məşğul olması üçün nəzərdə tutulmuşdur. Olduqca sadə tikilmiş ikinci məsciddən məktəb kimi istifadə edilir3. 615 tüstüçıxandan ibarət olan Ordubad şəhərində isə 6 məscid olduğu qeyd edilir[17].

İrəvan və Naxçıvandakı məscid və məktəblər haqqında nisbətən müfəssəl məlumat verən mənbələrdən biri İ.İ.Şopenin bölgənin tarixinə aid əsərləridir.O yazır ki,İrəvanda tədris müəssisələri məscidlər yanında təşkil edilir ki, bu məktəblərdə onlarla oğlan uşağı savad təliminə yiyələnirlər. Şəhərin Hüseyn Əli xan məscidində 200-ə yaxın şagird təhsil alır[18].

Naxçıvan və Ordubad məscidləri haqqında statistik məlumatlara gəlincə, Şopen göstərir ki, Naxçıvan şəhərində iki məscid, Ordubad şəhərində isə altı məscid, iyirmi beşə qədər müsəlman ibadət evi var. Ordubadda 30 yaxın az və ya çox dərəcədə salamat qalmış məscid var ki, onların hər birində 30-a yaxın müsəlman uşağı oxuyur[19].

1853-cü ildə nəşr olunmuş İrəvan quberniyası üzrə hərbi-statistik təsvirdə Naxçıvanda 3 məscidlə yanaşı, 4 ibadət evinin olduğu göstərilirdi.Bu məscidlər yanında məktəblərdə 16 müəllim-molla dərs deyir, 145 şagird təhsil alırdı. Məscidlər Naxçıvandan Ordubada gedən yolun üstə yonulmuş böyük daşlardan tikilmiş, daxili müxtəlif barelyevlərlə bəzədilmişdi.[20]

XIX əsrin 60-70-ci illəri üzrə məscid məktəblərinə aid illik hesabatların aparılması işinə nəzarətin xeyli gücləndiyi hiss olunur. Bu məsələyə imperiya idarəçiliyinin ən yüksək dairələrində baxılmış

---

[17] Обозрение Российских владений за Кавказом. Часть IV, СПб., 1836, 231-232 s

[18] Шопен И. И. Исторический памятник состояния Армянской области в эпохи ее присоединения Российской империи. СанктПетербург: 1852, s.462

[19] Yenə orada, s.688

[20] Военно-статистическое обозрение Российской империи.Том.16 Часть, 6,Эриванская губерния, СанктПетербург, 1953, 261-263 с.

və 29 iyun 1867-ci il "Qafqaz və Zaqafqaziya tədris hissəsi haqqında Nizamnamə" qaydalarında təsbit olunmuşdur. Nizamnamənin 11-ci maddəsinə "Qeyd"də göstərilirdi ki, *"Qafqazda Xristianlığın yayılması cəmiyyətinin nəzdində olan kilsə və monastrlar yanındakı məktəblər, eyni zamanda məscid məktəbləri quberniya və vilayətlərdəki məktəb direksiya və inspeksiyalarına tabe olmayan tədris müəssisələridir. Sonuncular (məscid məktəbləri) yerli polis idarələrinin tabeliyində qalır ki, məktəblər direksiysının rəhbərləri onlar haqqında zəruri hesabatların hazırlanması üçün hər il statistik məlumatlar toplamağa borcludurlar."*[21]

XIX əsrin 60-70-ci illərində dövrünə görə məscid məktəblərinin geniş şəbəkəsinin yaranması bu tədris müəssisələrinə hökumətin rəsmi nəşrlərində də diqqətin artmasına səbəb olmuşdur. "Кавказский календарь" məcmuəsinin 1871-ci ilə aid buraxılışındakı statistik məlumatdan aydın olur ki, quberniyanın İrəvan, Naxçıvan, Ordubad kimi əsas şəhərlərində məscid məktəbləri əvvəlki illərə nisbətən hiss olunacaq dərəcədə artımışdır. Naxçıvan məscid məktəblərində 245 nəfər, Ordubad məktəblərində isə 250 nəfər şagirdin oxuduğu qeydə alınmışdır.[22]

"Сборник статистических сведений о Кавказе"adlı nəşrdə Naxçıvanda dörd məscid məktəbi olduğu göstərilir.Bu məktəblərdə sadə şəhərtəbəqəsinin uşaqları çoxluq təşkil edir. Ordubadda isə 5 məscid məktəbinin fəaliyyət göstərdiyi yazılır.[23] Digə bir nəşrdə isə 1873-cü ilin statistikasına əsaslanaraq Naxçıvan və Ordubad qəzalarındakı məscid məktəbləri, bu məktəblərdə təhsil alan şagirdlərin və müəllimlərin siyahısını göstərən cədvəl də verilmişdir. Cədvəldən aydın olur ki, bu qəzalarda 733 şagird və 40 müəllim olmaqla 36 məscid məktəbi fəaliyyət göstərir.[24]

---

[21] Полное собрание законов Российской империи, Том 42, Часть I, СанктПетербург, Сборник1867, с.1017

[22] Кавказский календарь на1871 год, Тифлис, 1870, с.379

[23] Yenə orada

[24] Сборник сведений о Кавказе: в 7-х т. Т.VII. (Под ред. Н.Зейдлица), Тифлис, 1880, с.25

Qeyd edək ki, bu məktəblər haqqında ilk XIX əsrin 90-cı illərində məscid məktəblərində islahatlar aparılması haqqında fikir və mülahizələr yarandı. Bu məktəblər haqqında ilk yazılar "Qafqaz" qəzetində çap olundu.Müzakirələrdə məscid məktəblərində gigiyenik tələblərin gözlənilməməsi, rus dilinin və dünyəvi elmlərin tədrisinə yer verilməməsi xüsusi olaraq qeyd olunur və həlli yollarının müəyyənləşdirilməsinə səy göstərilirdi. Müzakirələr zamanı A.O.Çernyayevski də maraqlı töcsiyələrlə çıxış etmişdir.

Dissertasiyanın ikinci fəsli **"Rusiya imperiyasının Qavqazda tədris müəssisələrinin formalaşması sistemində Naxçıvan qəza məktəbi: meydana gəlməsi və inkişafı "** adlanır və beş paraqrafı əhatə edir. Fəslin birinci paraqrafı "Qafqazda ilk ruus məktəbləri " Rusiya imperiyasının Qafqazda təsis etdiyi ilk məktəblərdə Azərbaycan dilinin tədrisi məsələləri şərh olunur. Azərbaycanda maarifçi hərəkatın yaranması və yayılmasında rus dövləti tərəfindən təsis edilən məktəblərin xüsusi əhəmiyyəti var idi. Hər şeydən əvvəl bu məktəblərdə tədrisin məzmunu zamanın tələblərinə müəyyən dərəcədə cavab verəcək bir halda idi. Təhsilin mahiyyətində dünyəvilik səciyyəvi cəhət idi. Professor Hüseyn Əmədovun yazırdı ki, *"...dövlət tərəfindən açılan ilk məktəblər həyata bir yenilik gətirdi: yeni üsullu dərsliklər və tədris vəsaitləri yazıldı, rusca təhsil alan yeni ziyalılar dəstəsi yetişdi*"[25].

Rus hökuməti Qafqazda dünyəvi məktəblər açsa da, onların fəaliyyət dairəsinin genişlənməsinə imkan vermirdi.Çar hökumətinin Zaqafqaziyada açdığı ilk məktəb Tiflis Nücəba məktəbi idi. Araşdırmalarımız göstərir ki, azərbaycanlı uşaqlar Tiflis Nücəba məktəbi yarandığı ilk illərdən etibarən burada təhsil almış, təlim işlərində yaxşı nailiyyətlər əldə etmişlər. Məktəbin 1807 - ci tədris ilinin sonunun nəticələrinə aid Qafqazın baş hakimi general-feldmarşal qraf İ.V.Qudoviçin Rusiya Xalq Maarif nazirinə göndərdiyi 27 iyul 1807-ci il tarixli rəsmi məktubunda fikrimizi təsdiqləyən bir faktla tanış oluruq. Məktubda İ.V.Qudoviç Tiflis Nücəba məktəbindəki təlim-tərbiyə məsələləri haqqında maraq

---

[25] Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, s.38

doğuran belə bir cəhəti diqqətə çəkərək yazırdı: *"...mən özüm Tiflis Nücəba məktəbini şəxsən gözdən keçirmiş, təhlil etmişəm. Buradakı yaxşı nizam-intizam, səliqə-səhman məni tamamilə məmnun etdi. Şagirdlərin təlimdə yaxşı nailiyyətlər, uğurlar əldə etmək səyləri, çalışqanlığı və qeyrət göstərmələrini müşahidə etdim ki, xüsusilə onların arasında general- leytenant Cəfərqulu xan Şəkinskinin oğlu İsmayıl paşa ... qısa müddət ərzində olduqca yaxşı müvəffəqiyyətlər əldə.etmişdir."*[26]

Tiflis Nücəba məktəbinin təhsil tariximizdə yeri ondan ibarətdir ki, rus dövlət məktəbi kimi Azərbaycan dili müstəqil bir tədris fənni olaraq ilk dəfə məhz burada öyrədilmişdir. Bir cəhətə də diqqəti çəkək ki, hələ 1810-cu ildə Qafqazın o zamanki baş hakimi A.P.Tormasov Tiflisdə açmaq istədiyi Tiflis Nücəba Hərbi məktəbinin "İlkin qaydalarını hazırlayarkən sənədin 9-cu bəndində göstərirdi ki, "*Tatar dili (Azərbaycan dili–V. R.), bu dil təkcə bütün Asiyada deyil, həmçinin Avropanın mühüm hissəsində işlənir. Bu dili bilmək xüsusilə bu ölkədə (Qafqazda V.R.) hər bir zabitə vacibdir*"[27].

1819-cu ildə Qafqazın baş komandanı general Yermalovun rəyi əsasında Tiflis Nücəba məktəbində əsaslı dəyişikliklər, yeniləşmə işləri həyata keçirildi. Təhsilin məzmununda müəyyən dəyişikliklər aparıldı. 1807-ci ildən tədris olunan latın və alman dilləri tədris proqramından çıxarıldı və əvəzində Azərbaycan dili müstəqil fənni kimi məktəbin tədris proqramına daxil edildi. Bu cəhət ona əsaslanırdı ki, Qafqazın rus administrasiyasının, general Yermalov da daxil olmaqla, bütün əvvəlki nümayəndələri Azərbaycan dilinin bu ərazilərdə olduqca mühüm praktik əhəmiyyətə malik olduğunu görmüş, bu dili elmi, tədris-təcrübi olaraq öyrənmədən Qafqazı gəzib-dolaşmağın, hərbi işlərdə, dövlət idarələrində yerli xalqlarla ünsiyyət qura bilməyin mümkünsüzlüyünü dərk etmişlər. Qafqazda yaşayan bütün xalqlar bu dili bilirdilər. Hətta işləmək üçün Qafqaza

---

[26] Акты Кавказскою Археографичекий комиссию:в 12-х т. Т. IV, Тифлис, 1870, 27 с.

[27] Акты Кавказскою Археографичекий комиссию:в 12-х т. Т. IV, Тифлис, 1870, 60 с.

göndərilən yüksək çinli rus məmurlarının belə Azərbaycan dilini öyrəndikləri haqda çoxlu faktlar var.

Qeyd edək ki, tədqiq etdiyimiz problemlə bağlı araşdırmalarımız zamanı Tiflis Nücəba məktəbinin ilk Azərbaycan dili müəlliminin şəxsiyyəti haqqında az da olsa məlumat əldə etmək mümkün oldu. Bu müəllim Mirzə Cəfər Puşmalov idi.Mirzə Cəfər Puşmalov 1829-cu ilə qədər Tiflis Nücəba məktəbində, bir il isə Tiflis gimnaziyasında Azərbaycan dili fənni üzrə müəllim işləmişdir[28].

Bəhs olunan dövrün 1828-1830-cu illərində rus-türk, rus-İran müharibələri zamanı Azərbaycanın Şəmşədil mahalının əsilzadə ailələrindən girov götürülmüş uşaqlar üçün "Amanatlar məktəbi"[29] şərti adıyla təsis olunmuş və Tiflisdə üç ilə yaxın bir dövr ərzində fəaliyyət göstərmiş tədris müəssisəsini də qeyd etməliyik. Siyasi mövqelərdən, müstəmləkə niyyətlərindən irəli gəlsə də, "Amanatlar məktəbi" rusların azərbaycanlı uşaqlar üçün açdığı ilk tədris müəssisəsi sayıla bilər. Burada şagirdlərin milli tərkibini yalnız azərbaycanlıların təşkil etməsi, Azərbaycan dilinin, şəriət dərslərinin və rus dilinin öyrədilməsi, bunlarla yanaşı ibtidai təlimin verdiyi imkanlar (fənnlər) daxilində təhsilin dünyəviliyi bu tədris müəssisəsini rus dövlətinin Qafqazda açdığı ilk məktəblərdən biri hüsab etməyə əsas verir.

Beləliklə, göstərməliyik ki, çar hökuməti əsrin ilk illərindən Türkmənçay müqaviləsinə qədərki dövr ərzində regionda özünün məqsədlərindən asılı olaraq bir qism əhalini maarifləndirmə siyasəti aparmış, Tiflis Nücəba məktəbi, Tiflis Nücəba Hərbi məktəbi, girov götürülmüş uşaqlar üçün tədris müəssisəsi yaratmaqla gələcək təhsil siyasətinin təməlini qoya bilmişdir. Bu tədris məktəblərdə təhsilin

---

28 Rzayev V.M. Zaqafqaziya xalqlarının pedaqoji əlaqələri (XIX əsr və XX əsrin əvvəlləri), Ped.üzrə fəl. dok...diss, Bakı: APİ, 1990, s.45-63; Həmçinin bax Русская старина, Ежемесяное историческае издание, Марть 1886 год. Записки Дмитрия Ивановича Кипиани, с. 517–588

29 Gürcüstan Respublika MDTA, F. 1105, iş 100, 69 v;

dünyəviliyi, yerli dillərin bir fənn kimi öyrədilməsi sonrakı dövrlər üçün olduqca faydalı təcrübə idi.

İkinci fəslin ikinci paraqrafı **"Rusiya Xalq Maarif Nazirliyinin məktəb nizamnamələri və Naxçıvan qəza məktəbi"** adlanır. Burada göstərilir ki, çar hökumətinin Qafqazda, o cümlədən Azərbaycanda sistemli təhsil siyasəti bu ərazidə qəza məktəblərinin tədris müəssisələri kimi müəyyən şəbəkəsinin yaranması ilə nəticələndi. 2 avqust 1829-cu ildə Rusiya Xalq Maarif Nazirliyi tərəfindən Zaqafqaziya məktəblərinin ilk Nizamnaməsi əsasında Zaqafqaziyada bir gimnaziya və 20 qəza məktəbinin açılması nəzərdə tutulurdu.Nizamnaməyə görə Azərbaycan ərazisində qəza məktəbləri Şuşa, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Ordubad, Quba şəhərlərində və Qazax distansiyasında açılmalı idi. Lakin nizamnamənin qüvvədə olduğu 1835-ci ilə qədərki dövr ərzində hökumət Azərbaycan şəhərlərindən yalnız dördündə -Şuşa (1830), Nuxa (1831), Bakı (1832) və Gəncə (1834) və bir də indiki Ermənistanın paytaxtı sayılan qədim Azərbaycan şəhəri İrəvanda qəza məkəblərinin fəaliyyətini reallaşdıra bildi.

1835-ci il Nizamnaməsi 1829-cu il qaydalarından əsaslı şəkildə fərqlənməsə də təhsilin struktur-məzmununda yenilik əlamətləri nəzərə çarpacaq dərəcədə idi. Mövcud iki sinifli qəza məktəbləri də daxil olmaqla nizamnamə üzrə açılması nəzərdə tutulmuş qəza məktəbləri üç sinifli tədris müəssisələri kimi fəaliyyət göstərməli idi. Bu rəsmi sənəddə Azərbaycan ərazisində Şamaxı, Naxçıvan, Quba, Qazax distansiyası və (Ordubad şəhərində qəza məktəbi təxirə salınmaqla) Lənkəran şəhərlərində qəza məktəblərinin yaradılması vacib hesab edilmişdir. Qafqazın rəsmi idarəçiliyində müxtəlif bəhanələr gətirilərək Quba, Qazax və Ordubad şəhərində qəza məktəblərinin yaradılması təxirə salındı. Nizamnamə əsasında Azərbaycan ərazisində fəaliyyət göstərəcək ilk məktəb Naxçıvan şəhərində yaradıldı. Məktəbin rəsmi açılışı 15 mart 1837-ci ildə oldu.

Naxçıvan qəza məktəbi "*Ehsan xanın oğlanları İsmayıl və Kəlbalı xanın təşəbbüsü və himayəsi ilə, onların şəxsi evində (indiki*

*Cəmşid Naxçıvanskinin ev muzeyi) açılmışdı"*[30]. Bina məktəbə 12 il müddətinə pulsuz verilmişdi. Mənbələrdə İsmayıl xan və Kəlbalı xanın məktəbin nəfinə gümüş pul ilə 200 manat ianə etdikləri də göstərilir.Araşdırmalarımız göstərir ki, İsmayıl xan və Kalbalı xan ianə etdikləri gümüş pul ilə 200 manatı müvazi olaraq İrəvan qəza məktəbinin tədris-maddi bazasının yaxşılaşdırılması nəfinə köçürülməsini də vacib saymış, öz arzularını ifadə edən razılıq məktubu ilə bir neçə dəfə Qafqaz Tədris Dairəsinə müraciət etmiş və nəticədə istəklərinə nail ola bilmişlər. Fikrimizcə, bu cəhət yalnız xeyriyyətçilik fəaliyyəti kimi yox, döğma yurd yerlərinə təəssübkeşlik hissinin təzahürü kimi də əhəmiyyətli idi.

Naxçıvan xanlarının maarifçi-xeyriyyəçi fəaliyyəti haqqında tarixin silinməyən səhifələrindən biri də Kalbalı xanın bilavasitə tövsiyyəsi ilə İrəvan şəhərində azərbaycanlı uşaqlar üçün yaradılmış məktəbdir.Bu məktəb-pansion Kalbalı xanın uşaqlarının tərbiyəçisi işləmiş Sofiya Stasyuleviç tərəfindən açılmışdır. 1877-ci ildən fəaliyyətə başlamış məktəb İrəvan şəhərində əsrlərlə formalaşmış təhsil tariximizin çox əhəmiyyətli səhifələrindən biri sayıla bilər. Maraqlı faktdır ki, ilk günlər 15 uşaqla fəaliyyətə başlayan məktəbdə ilin sonunda 105 nəfər şagird təhsil əlmışdır.Məktəbdə tez bir zamanda uşaqların təlimi üzrə diqqəti çəkən müvəffəqiyyətlər əldə edilmiş, onun məktəbindən progimnaziyaya qəbul olan şagirdlər ən yaxşı şagird hesab olunmuşlar[31].

Qafqazın ilk canişini M. S. Voronsovun hakimiyəti (1845-1855) dövründə Zaqafqaziya məktəblərinin 18 dekabr 1848-ci il Nizamnaməsinin birinci maddəsində təntənəli şəkildə qeyd olunurdu ki, Zaqafqaziya ölkəsində, Stavropol quberniyasında, ümumən bütün Qafqazda xüsusi tədris dairəsi yaradılır. Nizamnamə sənədində Yelizavetpol (Gəncə), İrəvan və Naxçıvan qəza məktəblərinin Tiflis

---

[30] Naxçıvanda ilk məktəbin yaranmasının "160 illik yubleyinin qeyd edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbovun sərəncamı, "Şərq qapısı" qəzeti, Naxçıvan, 1998, 28 fervral

[31] СМОМПК, Выпускъ первый, Тифлис, 1881, с. 53

direksiyasına daxil edilməsi nəzərdə tutulsa da, qeyd olunurdu ki, Zaqafqaziya ölkəsində müsəlman məktəblərinin qurulması dövrünə qədər bu məktəblər Şamaxı-Dərbənd direksiyasına daxil edilir[32]

29 oktyabr 1853-cü il tarixdə Qafqaz məktəblərinin fəaliyyəti haqqında qəbul edilmiş Nizamnamədə Naxçıvan regionu üçün, ümumən Azərbaycan məktəb təhsili üçün bir sıra əhəmiyyətli cəhətləri ilə diqqəti cəlb edir. Hər şeydən əvvəl Ordubad əhalisinin uzun müddət ərzində şəhərdə rus dövlət məktəbinin yaradılması üçün göstərdikləri səylər həqiqətə çevrildi. Ordubad iki sinifli ibtidai məktəbi məhz bu Nizamnamə əsasında 1854-cü ildən fəaliyyətə başladı.

Qafqaz təhsil müəssisələri haqqında sonuncu, 25 iyun 1867-ci il Nizamnaməsi regionun təhsilinin ümumrusiya təhsilinə yaxınlaşdırılmasında belə demək mümkünsə, oriyentiri müəyyənləşdirdi Nizamnamənin ikinci paraqrafında Qafqazda fəaliyyət göstərən tədris müəssisələri 5 məktəblər direksiyalarına və bir inspeksiyaya bölünürdü:1) Tiflis məktəblər direksiyası, 2) Stavropol məktəblər direksiyası, 3) Kuban məktəblər direksiyası, 4) Kutaisi məkəblər direksiyası, 5) Bakı məktəblər direksiyası, 6) İrəvan məktəblər inspeksiyası. Burada göstərilirdi ki, *“Naxçıvan və Ordubad məktəbləri yuxarıda göstərilən Direksiyalardan uzaq olduğundan həmin məktəblər İrəvan Progimnaziyası ilə birlikdə İrəvan İnspeksiyası adı altında birləşdirilərək xüsusi inspeksiya yaradılır*[33].

İrəvan klassik progimnaziyası bu tip tədris müəssisələrində tədrisi vacib hesab edilən iki qədim dillər (latın və yunan dilləri) əvəzinə yalnız bir qədim dil təlim edilən tədris ocağı kimi nəzərdə tutulurdu. Naxçıvan qəza məktəbi progimnaziyaya yaxın ərazidə yerləşdiyi üçün burada da xarici dil kimi Latın dilinin tədrisi vacib hesab edildi.

---

[32] Полное собрание законов Росийской империи: собрание второе, т. 42, часть 1, СанктПетербург: 1867, с.1016

[33] Полное собрание законов Росийской империи: собрание второе, т. 42, часть 1, СанктПетербург: 1867, с.1016

Qeyd edək ki, Rusiyanın daxili quberniyalarında ibtidai təhsil üzrə baş verən islahatlar təhsilin sonrakı pillələrində də yenilik və dəyişiklikləri zəruri etdi. Qəza mərkəzlərində və böyük şəhərlərdə strukturu və məzmununa görə əvvəlki tədris müəssisələrindən fərqlənən yeni tip tədris müəssisələrinin-şəhər məktəblərinin yaradılması gündəmə gəldi. Bu məktəblər 31 may 1872-ci ildə təsdiq olunmuş xüsusi Nizamnamə əsasında fəaliyyət göstərirdi. Azərbaycandakı digər şəhər məktəbləri kimi Naxçıvan şəhər məktəbi də mövcud qəza məktəbinin bazası əsasında yaradıldı. Naxçıvan qəza məktəbi 1879-cu ildən üç sinifli şəhər məktəbi kimi fəaliyyətini davam etdirdi.

Beləliklə, Qafqaz və Zaqafqaziya tədris hissəsi haqqında nizamnamə qaydaları 1867-ci ilin Nizamnaməsi ilə başa çatdı. Regiondakı məktəblərə aid bu qaydalar sonuncu normativ sənəd oldu. Azərbaycanda, ümumən Qafqazda rus dövlət məktəblərinin fəaliyyəti hökumətin 1829, 1835, 1848, 1853, 1863 və 1867-ci il Qafqaz məktəbləri haqqında nizamnamələri vasitəsi ilə həyata keçirilmişdi. Bu Nizamnamələrdən 1835-ci ilə aid olanı Naxçıvan qəza məktəbinin, 1853-cü ilə aid olanı isə Ordubad şəhər ibtidai məktəbinin fəaliyyətə başlamasını rəsmi şəkildə təsdiqlədi.

İkinci fəslin **“Naxçıvan qəza məktəbində şagirdlərin milli və silki tərkibi”** adlı üçüncü paraqrafında bu təhsil müəssisəsində şagirdlərin sayı, milli və silki tərkibinə aid dövlətin siyasətindən bəhs olunur.Tipindən və səviyyəsindən asılı olmayaraq dövlət məktəblərində şagird kontingenti müxtəlif millətlərdən -yerlərdəki rus dövlət məmurlarının, azərbaycanlı, gürcü, yəhudi və digər millətlərin uşaqlarından təşkil olunurdu. Tədris rus dilində aparılırdı. İmperiya məqsədlərindən irəli gəlsə də, Qafqazın aborogen millətlərindən olan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların, gürcülərin, digər etnik qrupların təhsilə cəlb edilməsi işinə xüsusi əhəmiyyət verilirdi.

Naxçıvan qəza məktəbinin fəaliyyətinin ilk illərində çox az sayda azərbaycanlı şagirdin təhsil aldığı açıq-aydın görünür.lakin sonrakı illərdə Naxçıvan qəza məktəbi və Ordubad normal ibtidai məktəbində azərbaycanlı şagirdlərin sayı hiss olunacaq dərəcədə artmışdır. 1850-1873-cü illəri, yəni 23 illik bir zaman kəsiyini əhatə

edən statistik məlumat azərbaycanlı şagirdlərinin illər üzrə sayını aşağıdakı kimi göstərir:

1850-ci ildə 17 şagird; 1851-ci ildə 23 şagird; 1852-ci ildə 21 şagird; 1853-cü ildə11 şagird; 1854-cü ildə12 şagird; 1855-ci ildə 10 şagird; 1856-cı ildə 13 şagird; 1857-ci ildə10 şagird; 1858-ci ildə3 şagird; 1859-cu ildə6 şagird; 1860-cı ildə 14 şagird; 1861-ci ildə 34 şagird; 1862-ci ildə 35 şagird; 1863-cü ildə 28 şagird; 1864-cü ildə 25 şagird; 1865-ci ildə 26 şagird; 1866-cıildə 24 şagird; 1867-ci ildə 29 sagird;1868-ci ildə 19 şagird; 1869-cu ildə 19 şagird; 1870-ci ildə 15 şagird; 1871-ci ildə 19 şagird; 1872- ci ildə 22 şagird; 1873-cü ildə 31 şagird[34].

Bu statistik rəqəmlər arxiv sənədlərində və "Кавказский календарь" məcmuəsinin ayrı-ayrı illər üzrə nəşrlərində də göstərilirdi. 1898-ci ildən etibarən qəza məktəbi üzrə azərbaycanlı şagirdlərin sayında əsl dinamikanı müşahidə etmək mümkündür. Çox saylı arxiv sənədləri və dövrü nəşrlərin ("Qafqaz təqvimi" soraq kitabının müxtəlif illərə aid buraxılışlarının) nəzərdən keçirilməsi zamanı aydın olur ki, bu tədris müəssisəsində 1898-ci ildə 206 nəfər. 1899-cu ildə 207 nəfər, 1900-cü ildə1900-cü ildə 207 nəfər, 1901-ci ildə 209 nəfər, 1902-ci ildə 220 nəfər, 1903-cü ildə 260 nəfər, 1904-cü ildə 280 nəfər şagird olmuşdur. XX əsrin əvvəllərində məktəbin şagird heyətində azərbaycanlı şagirdlərin sayı bir qayda olaraq digər millətlərdən olan şagirdlərin sayından üstün olmuşdur. Mənbələrdən bir neçəsi ilə tanışlıq fikrimizi təsdiq edir. Məsələn, 1908-ci ildə naxçıvan şəhər məktəbində oxuyan 224 şagirddən 97 nəfəri azərbaycanlı idi. Ordubad şəhər ibtidai məktəbində 134 şagirddən 110 nəfəri azərbaycanlı idi [35]. 1909-cu ildə Naxçıvan şəhər məktəbində 223 şagirddən 96 nəfər azərbaycanlı idi. Ordubad

---

[34] Сборник сведений о Кавказе:в 7-х т. Т. VII, (под ред. Н.Зейдлица), Тифлис,1880, s.253

[35] Отчет о состоянии учебных заведений Кавказского Учебного Округа за 1908-г,Тифлис:1909, s.275

məktəbindəki 162 şagirddən 127 nəfərini azərbaycanlı şagirdlər təşkil etmişdi[36] və s.

İkinci fəslin dördüncü paraqrafı **"Naxçıvan qəza məktəbinin müəllimləri"** adlanır. Burada arxiv sənədləri və digər öyrənilməmiş mənbələr əsasında Naxçıvan qəza məktəbinin müəllimlərinin fəaliyyətindən bəhs olunmuşdur. Tədqiqat zamanı müxtəlif mənbələr (Tiflis, irəvan,Bakı və Naxçıvan arxivlər) əsasında qəza məktəbinin müəllimlərinin fəaliyyəti haqqında yeni sənədlər aşkar edilərək öyrənilmişdir. Məktəbin ilk Azərbaycan dili və şəriət müəllimi kimi Molla Allahverdi Sultanovun həyatına və müəllimlik fəaliyyətinə işıq salmaq, ona dövrün, zamanın fonunda nəzər yetirmək, qiymət vermək mükün oldu. Soy adının Sultanov olması, rus-türk müharibəsi zamanı Naxçıvan Sarvanlar süvari yarım batoliyonunda komandir kimi iştirakı onun Kəngərli xanlarının nəslindən olması ehtimalını artırır. Allahverdi Sultanov ömrünün 14 ilə yaxın bir dövrünü müəllimliyə həsr etmiş, pedaqoji fəaliyyəti dövründə mükafatlar almasa da, qüsursuz işləmişdir[37].

Molla Allahverdi Sultanovun şagirdi Qulubəyov Mirzə Sadıx Mirzə Kazım oğlu Naxçıvan qəza məktəbinin Azərbaycan dili və şəriət qanunları üzrə ikinci müəllimi olmuşdur. Arxiv sənədləri əsasında müəyyənləşdirmək olur ki, Mirzə Sadıx Qulubəyov 1823-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan qəza məktəbinin tam kursunu bitirmişdir. Qafqaz Tədris Dairəsinin komissiyası qarşısında imtahan verib şəriət qanunları və Azərbaycan dili fənni üzrə müəllimlik hüququnu qazanmışdır.,10 oktyabr 1852-ci ildən Naxçıvan qəza məktəbinin şəriət və Azərbaycan dili müəllimi vəzifəsindəiçləmişdir. İşlədiyi müddət ərzində nümunəvi müəllim olmuş, işinə məsuliyyətlə yanaşmış, dərs buraxma halları müşahidə edilməmişdir[38].

---

[36] Отчет о состоянии учебных заведений Кавказского Учебного Округа за 1909-г, Тифлис: 1910, s.283

[37] Naxçıvan Muxtar Respublikası MDA, f.26, s.1, iş 26/27, v.6

[38] Gürcüstan Respublika MDTA, f. 422, iş 696, 29 v.

Mirzə Sadıx Qulubəyov yaxşı müəllim, pedaqoq olmaqla yanaşı, şəhərin ictimai-mədəni həyatında da fəal iştirak etmişdir. Akademik İsa Həbibbəyli göstərir ki, "*Mirzə Sadıx Qulubəyov Naxçıvan teatrının ilk yaradıcılarından biridir. O, hətta sonralar keçmiş şagirdi Cəlil Məmmədquluzadə ilə birlikdə teatr tamaşalarının hazırlanmasında iştirak etmişdir. Belə ki, 2 sentyabr 1887-ci ildə Naxçıvan şəhərində Hacı Nəcəf Zeynalovun zalında səhnəyə çıxarılmış əsər "şəhər məktəbinin müəllimi M. S. Qulubəyovun vəsatətinə görə" hazırlanmışdır. Bu tamaşada Molla İbrahim Xəlil rolunu Cəlil Məmmədquluzadə oynamışdır*[39].

Sonrakı illərdə qəza məktəbinin şəriət və Azərbaycan dili fənnini tədris edən müəllimlər Əli Tağı oğlu Hüseynzadə, Molla Nəsrulla Hacı Mirzəli oğlu, Mirzə Sadıx Xəlilov, Mirzə Ələkbər Süleymanov olmuşlar. Dissertasiyada arxiv sənədləri əsasında bu müəllimlərin həyatı haqqında yeni faktlar, məlumatlar verilmiş, müəllimlik fəaliyyətləri əsaslı mənbələr üzrə şərh olunmuşdur.

Tədqiqat zamanı Rusiyadan və Qərbi Avropadan gəlmiş müəllimlər haqqında da çoxlu sayda sənədlər öyrənilmişdir. İlk müəllimlər sırasına mənsub olan A.İ.Filimanov, P. M. Krınsov, Q.İ.Çerkasov, A.S.Sergeyev, V.L.Çermak, K.Nikitin, İ.M.Sanakoyev və başqaları məktəbdə tədris-tərbiyə işlərinin yaxşılaşması, onun təşkilati-metodik cəhətdən formalaşması işində bilik və bacarıqlarını əsirgəməmişlər.Tədqiqatda göstərildiyi kimi, arxiv sənədləri və digər tarixi mənbələrin qeyri millətlərdən olan müəllimlərin təlim-tərbiyə fəaliyyətinin bu və ya digər cəhətlərini işıqlandırmağa imkan vermişdir.

Naxçıvan şəhər məktəbinin inspektor-müəllimlərindən adı arxiv sənədlərində və dövrü nəşrlərdə tez-tez xatırlanan müəllimlərdən biri Konstantin Andreyeviç Nikitindir. K.Nikitin yerli xalqların, o cümlədən Azərbaycan dilini də bilirdi ki, bu da onun şəhərin mədəni mühitilə sıx təmasda olmasına zəmin yaratmışdır.

---

39 Həbibbəyli İ. Ə, Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Bakı: Azərnəşr, 1997, s.62

Naxçıvan şəhər məktəbinin adı qeyd olunmalı pedaqoqlarından biri də İvan Malxazoviç Sanakoyevdir. O, bu təhsil müəssisəsinin tarixinə qüsursuz, uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş müəllimlərdən biri kimi düşmüşdür. Araşdırmalar göstərir ki, İvan Sanakoyev Naxçıvan şəhər məktəbində 1892-ci ildən 1907-ci ilədək elm-fənn müəllimi işləmiş, həmin ildən 1915-ci ilədək isə məktəbdə inspektor vəzifəsini icra etmişdir. Araşdırmalar göstərir ki, Naxçıvan qəza (1879-cu idən şəhər) məktəbinin elm-fənn müəllimlərinin sırasında bir neçə azərbaycanlı müəllimin də adı yazılmışdır. Disseertasiyada bu müəllimlərdən Salahbəy Zöhrabbəyov, Fərəc bəy Sultanovun kimliyi və pedaqoji fəaliyyətinin qəza məktəbi ilə bağlı olan dövrü ilk, yeni mənbələr əsasında öyrənilmişdir. Yerli müəllim-ziyalılardan Mirzə Əliməmməd Xəlilov və Abbas Qədimovun adı da Naxçıvan qəza məktəbinin elm-fənn müəllimi kimi tarixə düşmüşdür.

Naxçıvan qəza (şəhər) məktəbinin pedaqoji heyətindən bəhs edərkən bu tədris müəssisəsinin fəxri nəzarətçilərinin xidmətlərini də unutmaq olmaz. Naxçıvan şəhər məktəbinin fəaliyyəti dövründə əsl fədakarlıq nümunəsi göstərmiş azərbaycanlı fəxri nəzarətçilər Hacı Əliqulu Novruzov, Böyük xan Naxçıvanski, Hənifə Zeynal oğlu Paşayev,Məmmədhüseyn bəy Cəlilovun adlarını xüsusi qeyd etmək lazımdır.

Beləliklə, göstərməliyik ki, qəza məktəbində ilk dövrlərdə yalnız Azərbaycan dili və şəriət fənnini tədris edənlər azərbaycanlı müəllimlərdən ibarət olmuşdur. Azərbaycan dili və şəriət fənnini tədris edənlərin böyük bir qismi bölgənin təhsil və ictimai-mədəni həyatında aktiv iştirakçı kimi çıxış etmiş, gəncliyin yeni baxışlar əsasında formalaşmasına yüksək səy və əzimkarlıqla çalışmışlar. Bu cəhət də əhəmiyyətli fakt sayılmalıdır ki, sonralar Naxçıvan qəza məktəbinin elm-fənn müəllimləri sırasında milliyyətcə azərbaycanlı olan müəllimlər də fəaliyyət göstərmişdir. Rusiya və Avropadan gəlmiş müəllimlər içərisində ustad pedaqoq, bilikli müəllimlər də olmuşdur ki, onların adları indi də təhsil tariximizlə bağlı tədqiqatlarda hörmətlə yad edilir

**“Naxçıvan qəza məktəbinin kitabxanası”** adlı beşinci paraqrafı fəslin sonuncu paraqrafıdır.Burada qeyd olunur ki. XIX

əsrin 30-40-cı illərində Azərbaycan ərazisində rus dövlət məktəblərinin açılması bu məktəblərdə dərs kitablarının mərkəzləşdirilmiş formada komplektləşdirilməsi işinə xüsusi ehtiyac yaratdı. Çünki mövcud dövlət məktəblərində fənlərin tədrisi rus dilində aparılırdı ki, bu da həmin dildə tədris vəsaitlərinin, həmçinin əlavə oxu materiallarının böyük həcmdə toplanıb müxtəlif millətlərdən olan uşaqların istifadəsinə verilməsini zəruri edirdi. Qəza məktəbləri dünyəvi xarakterə malik olması ilə bölgə təhsilini yeni məzmun keyfiyyətləri ilə zənginləşirmişdi. Bu məktəblərdə rus dilində tədris olunan təbiyyat-riyaziyyat elmləri, rus dili və ədəbiyyatı, rus tarixi və rus coğrafiyası, həmçinin rəsm və rəsmxətt kimi praktik fənlər, peşə, sənət, kənd təsərrüfatının müxtəlif sahələri üzrə məşğələlərin aparılması imperiyanın mərkəzlərindən gətirilən dərs kitabları vvasitəsilə tədris olunurdu

Yerli dil kimi Azərbaycan dilinin təlimi isə XIX əsrin birinci yarısında N.Dementyev, Mirzə Kazım bəy, Lazar Budaqovun, daha sonralar Mirzə Şəfinin, Konstantin Romanovun vəsaitləri hesabına ödənilirdi. Əsrin sonlarına yaxın Azərbaycan dili üzrə dərslik və digər tədris vəsaitləri hazırlanması işində yeni mərhələ başlandı.Bu tədris mənbələri məktəblərdə doğma ana dilinin öyrədilməsi işinə əhəmiyyətli təsir vasitəsi idi.

Qəza məktəbində dərslik, dərs vəsaitləri ilə yanaı, fənlərin öyrədilməsi prosesində istifadə edilən köməkçi vəsaitlərin (xəritə, atlas, qlobus, əyani vasitələr və s.) müəyyən komplektinə malik idi.

Naxçıvan qəza məktəbi və Ordubad ibtidai məktəbinin kitabxana fonduna aid mənbələrin öyrənilib ümumiləşdirilməsi göstərir ki, buradakı kitabları məzmununa görə iki böyük qrupa ayırmaq olar:

1.Tədris vəsaitləri: Bu bölməyə dərslikləri, pedaqoji-metodiki vəsaitləri aid etmək olar.Bu cür əsərlər və onların müəllifləri haqqında mənbələrdə, pedaqoji və metodiki fikrin tarixinə aid tədqiqatlarda verilən məlumatlar təhlil olunmuş, əldə edilən yeni fakt və məlumatlarlazənginləşdirilmişdir

II. Rus və Qərbi Avropa yazıçı və şairlərinin əsərləri. Bu qrupda rus yazıçı və alimlərindən M.V.Lomonosov, N.Karamzin, V.Juкovsкu, V.Belinski, N.Annenкov, İ.P.Kotlyarevski, A.S.Puşkin,

M.Y.Lermontov, N.Ostrovski, İ.A.Krılov, A.Talezin, N.V.Qoqol, F.İ.Buslayev, İ.Qonçarov, F.Dostoyevski, N.Nekrasov, Y.Polonski, İ.S.Nikitin, İ.Turgenev, M.Xomlyaкov, M.Sibiryak, xarici ölkə yazıçılarından V.Şekspir, Q.E.Lessinq, N.Bualonun adı və əsərlərini göstərmək olar.

Öyrənilən materiallar göstərir ki, Naxçıvan qəza məktəbi və Ordubad normal ibtidai məktəbinin kitabxana fondu şagirdlərin təlim-tərbiyəsində xüsusi rol oynamışdır. Bu məktəblərdə təhsil alan azərbaycanlı gənclər yuxarıda göstərilən əsərlərlə tanış olmaqla yeni baxışlara, həyati, real biliklərə yiyələnməklə gələcəkdə regionun, ümumən Azərbaycanın ictimai-mədəni həyatının yeni düşüncə və baxışlarla zənginləşməsində mühüm rol oynamış, xalqımızın azadlığı və xoşbəxt gələcəyi uğrunda mübarizə yollarında bu mütərəqqi ideyalardan faydalanmışlar.

Dissertasiyanın üçüncü fəsli iki parqafdan ibarət olmaqla **“XIX əsrin sonları və XX əsrin başlanğıcında şəhər və kənd ibtidai məktəblərinin yaranması və inkişafı”** adlanır. Birinci paraqraf Ordubad şəhər ibtidai məktəbinin yaranması və inkişaf mərhələlərindən bəhs edir.

Ordubad şəhər ibtidai məktəbi “Qafqaz tədris dairəsi və ona tabe olan tədris müəssisələrinin Nizamnaməsi” (29 oktyabr 1853-cü il) əsasında fəaliyyətə başladı. Nizamnamədə göstərilirdi ki, Qafqaz Tədris Dairəsində ibtidai məktəblər rəsmi olaraq Qafqaz canişinliyinin razılığı ilə yaradıla bilər. Bu sənəddə Ordubad ibtidai məktəbi birsinifli tədris müəssisəsi kimi nəzərdə tutulurdu. Müəyyən hazırlıq işləri başa çatdıqdan sonra məktəbin açılışı 1854-cü ilin 24 noyabrında baş tutdu. Məktəb ilk illərdən nümunəvi tədris müəssisəsi kimi tanınmışdır. Məktəbin bir illik fəaliyyətinə aid baxış və yoxlamalar zamanı tədris müəssisəsinə aid toplanmış məlumatlar, ona rəhbərlik çox diqqətlə öyrənilmiş, təhlil olunaraq qənaətbəxş hesab edilmişdir[40].

1860-1870-ci illərdə Ordubad şəhər ibtidai məktəbində azərbaycanlı şagirdlərin sayı aşağıdakı kimi olmuşdur: 1861-ci ildə

[40] Сборник сведении о Кавказе, в 7-х, T.V. ( Под.редак. Н. Зейдлица), 1880, s. 252

19 nəfər şagird, 1862-ci ildə 14 nəfər şagird, 1863-cü ildə 6 nəfər şagird, 1864-cü ildə 6 nəfər şagird, 1865-ci ildə 24 nəfər şagird, 1866-cı ilin şagird heyəti haqqında məlumat verilmir, 1867-ci ildə 17 şagird, 1868-ci ildə 4 şagird, 1869-cu ildə 16 şagird, 1870-ci ildə 13 şagird, 1871-ci ildə 13 şagird, 1872-ci ildə 17 şagird, 1873-cü ildə 18 şagird.[41]

Əhali arasında məktəbin nüfuzu gün-gündən artırdı. Tədris-tərbiyə işlərində də müəyyən uğurlar əldə edilmişdi. XIX əsrin 90-cı illərində Ordubad ibtidai məktəbi əsaslı şəkildə yenidən quruldu.Məktəbin struktur-məzmununun kökündən dəyişdirilməsi məqsədilə 2 dekabr 1896-cı ildən 1 iyul 1897-ci ilədək aparılan müzakirə və tövsiyələr əsasında məktəb iki sinifli şəhər ibtidai məktəbinə çevrildi. Belə bir dəyişiklik müəllim ştatının da artırılmasına zəmin yaratdı. Məktəbə ikinci elm-fənn müəllimi ştatı verildi.

Məktəbin əsaslı şəkildə yenidən qurulması şagird heyətinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərirdi. XX əsrin əvvəllərində şagird heyətinin artmasında əsl dinamikanı açıq-aydın görmək mümkün idi. 1902-ci ildə məktəb bir daha dəyişilərək, yeni məzmun, quruluş xüsusiyyəti qazandı.İkisinifli şəhər ibtidai məktəbi üçsinifli şəhər ibtidai məktəbinə çevrildi. Belə bir dəyişiklik məktəbə şagird axınını xeyli gücləndirdi.Dövrün statistik nəşrlərində azərbaycanlı uşaqların sayının artması müşahidə olunur. Məsələn, 1904-cü ildə Ordubad üçsinifli məktəbində təhsil alan 103 nəfər şagirddən 49 nəfər şagird azərbaycanlılardan ibarət olmuşdur. 1907-ci ilin ststistikasına görə məktəbdə təhsil alan 112 şagirddən 83 nəfəri azərbaycanlı olmuşdur və s.Sonrakı illərdə məktəbin şagird heyətində azərbaycanlı uşaqları sayı bir qayda olaraq 100 nəfərdən artıq olmuşdur. Azərbaycanlı uşaqlar ildən-ilə məktəbin şagird heyətinin böyük əksəriyyətini təşkil edirdi. Məsələn, 1908-ci ildə məktəbdə təhsil alan 134 şagirddən 110 nəfəri milli mənsubiyyətinə görə azərbaycanlı idi. 1909-cu ilin hesabatında 162 şagirddən 127 nəfərini azərbaycanlı uşaqlar təşkil etmişdir. 1910-cu ildə isə

---

[41] Yenə orada, s.253

məktəbdə yenə də 162 şagird təhsil almışdır ki, onlardan 128 nəfəri azərbaycanlı olmuşdur.

Məktəbdə 1911-ci ilin məlumatına görə təhsil alan 172 nəfər şagirddən 141 nəfərini azərbaycanlı uşaqlar təşkil etmişdir[42].

Məktəb dövrünün ictimai- mədəni tədbirlərində, maarifçi-xeyriyyəçivə ictimai faydası olan işlərində lazımi səviyyədə iştirakçı olmuşdur. Şəhərin meteoroloji stansiyasının yaradılması da bu təhsil müəssisəsinin pedaqoji heyətinin əməyi sayəsində mümkün olmuşdur.

Məktəbdə yazıçı və şairlərdən İ.A.Krılovun, N.M.Karamzinin, N.V.Qoqolun, İ.Turgenevin, A.S.Puşkinin, M.Y.Lermontovun, Avropa klassiklərinin yubileylərinin və əsərlərinin müzakirələrinin keçirilməsi təkcə təhsil müəssisəsinin daxilində deyil, həm də şəhərin ictimai-mədəni həyatında təsirsiz qalmayan, izi görünən tədbirlər idi.Məsələn, məktəbin A.S. Puşkinin Çar kəndində (Царское село) liseyin bağında abidəsinin ucaldılması məqsədilə tədris müəssisələrində açılmış kompaniyaya (1961-ci il) qoşulması ruh yüksəkliyi ilə keçirilən tədbirlərdən idi.[43]

Məktəbin fəaliyyət göstərdiyi müddətdə şagirdlərin təlim-tərbiyəsi ilə bir çox qabaqcıl müəllimlər məşğul olmuşdur. Şəriət və Azərbaycan dili fənnini Molla Mirzə İsmayıl Axund Mirzə Sadıx (1854- 1855), Mirzə Əliməmmədbəy Mirzə Ağa oğlu Əlixanov (1857-1887), Mirzə Yəhya Səməndərov (1888-1903), Mir Kərim Əbdüləziz oğlu (1905-1916 ) tədris etmişdir.

Məktəbin ilk ştatlı nəzarətçisi P. L. Georgiyev olmuşdur. Sonralar bu vəzifədə ayrı-ayrı illər üzrə İ. F. Yakimidi (1866-1868), İ. D. Boqolyubov (1869-1872), M. D. Zazunov (1873-1876), Q. Y. Boqdanov (1879-1882), Qasım Qasımov (mənbələrdə adı və soyadı Касим Касимов kimi getmişdir) (1883-1887), N. A. Suvorov (1888-1890), Q. X. Sulxanov (1891-1893), N .S. Krupnikov (1894-1896), P. Saulidi (1896-1902), A. S. Qomelauri (1904-1916) işləmişdir.

[42] Отчет о состоянии учебных заведений КУО за 1911 года, Тифлис: 1912, s.301

[43] Ermənistan Respublika MDTA, F.19,s.1,iş27,22v.

Məktəbin ikisinifli (1897), üçsinifli (1903) daha sonralar ali ibtidai şəhər məktəbinə çevrilməsi(1912) nəticəsində tədris fənnlərinin sayı artmış, nəticədə ayrı-ayrı fənnlər üzrə müəllim və müəllim köməkçisi ştatları da açılmışdır. Məktəbdə AbbasbəyMinasazov, MirKərim MirAbdulla oğlu D.Q.Yenukidze, V.İ.Muradov, K.S.Çexanov, Q.A.Romanenko, Q.F.Çaladze, K.Saruxanov, M.Ç.Kotiyev, M.Q.Akritov və başqaları ayrı-ayrı tədris fənnləri üzrə müəllim kimi fəaliyyət göstərmişlər. Bu pedaqoqların əksəriyyəti özləri haqqında yaxşı xatirələr qoyub getmişlər.İnquş xalqının böyük maarifçisi, azadlıq mücahidi M.Ç.Kotiyev də belə müəllimlərdən olmuşdur. Dissertiyada onun pedaqoji fəaliyyətinə aid əldə olunan sənədlər əsasında bəhs olunmuşdur.

Üçüncü fəslin ikinci paraqrafında XIX əsrin sonu və XX əsrin əvvəllərində **“Regionda kənd ibtidai məktəblərinin yaranması və inkişafı”** məsələləri öyrənilir.Tədqiq olunan dövrdə Naxçıvanda savad təliminin yayılması və inkişafında kəndlərdə meydana gəlmiş dünyəvi təhsil müəssisələri mühüm əhəmiyyətə malik olmuşdur. Bu tədris müəssisələri regionda əhalinin əhəmiyyətli bir hissəsinin maariflə əhatə olunması, təhsillənmə vasitəsi idi.

Bölgədə ilk kənd ibtidai məktəbi o zaman Şərur-Dərələyəz qəzasının (indiki Şərur rayonunun) Yengicə kəndində 1882-ci ildə fəaliyyətə başladı.

Məktəbin ilk nəzarətçisi Qori Seminariyasının məzunu Mirzə Ələkbər Süleymanov, ilk şəriət müəllimi isə Molla Zeynalabdin Qurbanbəyov olmuşdur. 1886-1887-ci illərdə bölgənin tanınmış pedaqoqlarından Sadıx Xəlilov müəllim kimi, daha sonralar nəzarətçi kimi işləmişdir. Həsən Nəzirbəyov, Abdulla Kəngərli, Həsən Ağayev, Məmməd Zamanbəyov, Molla Əli Fərəcbəyov və başqaları müxtəlif illərdə məktəbin müəllimləri olmuşlar.

Regionun kəndlərində maarif işığını yayan ilk təhsil müəssisələrindən biri də 22 sentyabr 1885-ci ildə açılmış Baş Noraşen (indiki Cəlilkənd) zemstvo ibtidai məktəbi idi. Məktəb yerli özünüidarə orqanları tərəfindən göstərilən maliyyə yardımlarının, şəxsi təşəbbüsü ilə xeyriyyəçilik işlərilə məşğul olan şəxslərin, ayrı-ayrı tədbirlər vasitəsilə toplanmış ianələrin və digər vəsait

mənbələrinin hesabına fəaliyyət göstərirdi.Müxtəlif illərdə Baş Noraşen ibtidai məktəbində bölgənin qabaqcıl ziyalılarından Mirzə Əli Xəlilov, Məmməd bəy Qazıyev, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Tağı bəy Səfiyev, Rəhim Rəhimov kimi pedaqoqlar yetişən nəslin təlim və tərbiyəsi ilə məşğul olmuşlar. Böyük yazıçı, jurnalist Cəlil Məmmədquluzadə də bu məktəbdə dərs demiş, bu tədris müəssisəsində ilk qələm təcrübəsi olan bir pərdəli "Çay dəsgah" pyesini şagirdlərin iştirakı ilə tamaşaya qoymuşdur[44].

Məktəbdə şəriət və Azərbaycan dili dərslərini Molla Yaqubəli Kərbəlayı Qurban oğlu, Molla Mirzə Fazil Fərzəlibəy oğlu tədris etmişlər. Baş Noraşen ikisinifli zemstvo ibtidai məktəbində ətraf kəndlərdən gələn çoxlu sayda şagird təhsil alırdı. Arxiv sənədlərində belə yaşayış məntəqələrindən Oğlanqala, Aralıq, Qarxun, Qarabulaq, Mahmudkənd, Vərməziyar, Düdəngə, Zeyvə, Əskikənd, Kosacan, Siyaqut, Sərxanlı, Muğancıq kəndlərinin adı çəkilir[45].

Regionun ilk kənd ibtidai təhsil müəssisələrindən biri də Nehrəm zemstvo normal məktəbi idi.Nehrəm zemstvo normal məktəbi rəsmi olaraq 11 sentyabr 1985-ci ildə açılmışdır. Bu tədris müəssisəsi də yerli icma tərəfindən maliyələşdirildiyindən zemstvo məktəbi adlanırdı.Məktəbdə Ələsgər Şeyxhəsənov, Cəlil Məmmədquluzadə, Sadıx Xəlilov, Kərim İsmayılov, Tağı bəy Səfiyev, Mirzə Cəlil Mirzəyev kimi dövrünün tanınmış maarifçiləri müxtəlif illərdə ştatlı nəzarətçi və müəllim kimi işləmişlər. Məktəbin fəaliyyət göstərdiyi dövr ərzində Molla Qasım Molla Zeynalabdin oğlu, Molla Məmmədqulu Molla Əbdülhəsən oğlu, Molla Məmmədqulu Qazıyev şəriət və Azərbaycan dili fənnini tədris etmişlər. Kərbalayi Cəfər Əli Kərbalayi Adıgözəl oğlu uzun müddət məktəbin fəxri nəzarətçisi kimi fəaliyyət göstərmişdir.

Nehrəm məktəbinin təlim-tərbiyə işlərində irəliləyişin, inkişafın yaranmasında böyük yazıçı Cəlil Məmmədquluzadənin xüsusi əməyi olmuşdur. O, 15 yanvar 1890- cı ildən 1897-ci ilin iyun

---

[44] Həbibbəyli İ.Baş Noraşen məktəbində tamaşa,Ədəbiyyat qəzeti, 11 mart 1994-cü il

[45] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 1, iş 161, v.5

ayınadək Nehrəm ibtidai məktəbinin ştatlı nəzarətçisi işləmişdir. Nəhz onun səyləri nəticəsində bu təhsil ocağında şagird kontingentinin sayı 40 nəfərə çatdırılmışdır. Böyük maarifçinin həyata keçirdiyi tədbirlərdən biri də məktəbdə qızlar üçün bölmənin yaradılması idi. Dövlət məktəbinə qızların cəlb edilməsi Nehrəmin, ümumən Naxçıvan bölgəsinin mədəni həyatı, təhsil mühiti üçün hadisə idi.

C.Məmmədquluzadə məktəbdə bir maarifçi kimi kəndin içtimai-mədəni həyatında da fəal iştirak etmişdir.

Cəhri kənd zemstvo ibtidai məktəbinin açılışı Nehrəm kənd ibtidai məktəbindən bir gün sonra, 12 sentyabr 1885-ci ildə baş tutdu. Bu təhsil müəssisəsi regionda meydana gələn və inkişaf edən kənd məktəblərindən biri kimi əhalinin təhsillənməsi işində müəyyən səviyyədə iştirakçı olmuş tədris ocaqlarından idi.

XIX əsrin 90-cı illərində bölgənin kənd məktəblərinin sırasına bir neçə təhsil müəssisəsi əvavə olundu. XX əsrin əvvəllərində isə bölgədə 50-yə yaxın kənd ibtidai məktəbi fəaliyyət göstərirdi.Dissertasiyada bu məktəblər haqqında arxiv sənədləri, dövrü nəşrlər və tədqiqat əsərlərinin nəticələrinə istinad edilərək məlumat verilmişdir.

Dissertasiyanın dördüncü fəsli **“Məhəmməd Tağı Sidqinin ana dili məktəbləri və Naxçıvanda rus-Azərbaycan məktəblərinin meydana gəlməsi və inkişafı”** adlanır. Fəslin “M.T.Sidqinin “Məktəbi Tərbiyə”si və onun varisi Naxçıvan rus-Azərbaycan oğlan məktəbi” adlı birinci paraqrafında göstərilir ki, XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanda qabaqcıl ziyalılar maariflənmək, mədəni tərəqqiyə nail olmaq üçün daha geniş meydan, daha əlverişli şəraitin və vasitələrin yaradılması işinə səy və qüvvə sərf edərək yeni struktur-quruluşa, yeni təlim üsullarına malik təhsil müəssisələri yaratmaq uğrunda mübarizəyə qoşuldular. M. T. Sidqinin “Əxtər” (1892) və “Məktəbi Tərbiyə”si (1894) dövrünün yeni təlim və tərbiyə üsullarının tətbiq olunduğu belə ilk milli təhsil müəssisələrndən biri idi. “Məktəbi Tərbiyə”nin nəinki Naxçıvanda, bütün Zaqafqaziyada tanınması dövlətin yerli idarəçilik məmurlarının diqqətini cəlb etmiş, “məktəbə tamaşa etmək bəhanəsi ilə” onu nəzarətə götürmüşdülər. Mürtəce baxışlı din xadimləri də

yeni pedaqoji üsul və qaydalarla işləyən məktəbin dinə və xalqa ziyan verdiyini elan edib onun bağlanmasını tələb edirdilər.

"Üsuli-cədid" (yeni üsul-qaydalarla fəaliyyət göstərən məktəb mənasını verir) hərəktının nəticəsi kimi meydana çıxan "Məktəbi Tərbiyə" ana dilinin tədrisi və təlimin ana dilində aparılması ideyasının reallaşdırılması mərhələsi idi. Bu məktəbdə xarici dillər və digər tədris fənləri (hesab, coğrafiya, hüsnxətt, ana dili) doğma ana dili vasitəsi ilə öyrədilirdi ki, bu cəhət əhalinin məktəbə maraq və meyllərinin başlıca şərti, hərəkətverici qüvvəsi idi. Məktəbə əhalinin marağını artıran digər çox mühüm cəhət isə ondan ibarət idi ki, burada dini və milli yekcinslik səciyyəvi xüsusiyyət idi. Burada yalnız azərbaycanlılar, ən yaxşı halda müsəlman dininə mənsub olanlar təhsil ala bilərdilər. İstər "Məktəbi Tərbiyə"nin, istərsə də onun varisi iki sinifli rus- Azərbaycan məktəbinin fəaliyyəti döründə şagird heyyətinin sayı həmişə 100-dən artıq olmuşdur.Bütün bunlar və xüsusilə rus dilinə ayrılan həftəlik saatların azlığı Məhəmməd Tağı Sidqinin dövlət rəsmiləri yanında etibarsız şəxs sayılması haqqında rəy yaranmasına zəmin yaratmışdır.

Araşdırmalar göstərir ki, idarəçilik orqanlarında M.T.Sidqinin təhsil sahəsindən kənarlaşdırılması gündəmdə olan bir məsələ idi.1898-ci ildə "Məktəbi Tərbiyə"nin adı dəyişdirilərək "Naxçıvan rus-Azərbaycan oğlan məktəbi" adlandırıldı.. Bu ildən etibarən məktəb dövlətin ixtiyarına verildi. Rus dilini yaxşı bilmədiyinə və dövlət məktəblərində müəllim vəzifəsini tutmaq üçün şəhadətnaməsi olmadığı bəhanə gətirilərək M.T. Sidqi məktəbin müdiri vəzifəsindən azad edilib Azərbaycan dili müəllimi təyin olunur. Mirzə Ələkbər Süleymanov məktəbə müdir təyin edilir.Tədrisi ikinci və üçüncü şöbələrdə 10 saat, üçüncü və dördüncü siniflərdə 8 saat nəzərdə tutulan Azərbacan dili dərsləri azaldılır. Ərəb və fars dillərinin tədrisi tamamilə ləğv edilir. Məktəbi İrəvan Quberniyasının məktəblər direksiyası idarə edir[46].

Arxiv sənədləri göstərir ki, 1897-ci ildə M.T.Sidqinin məktəbin müdirliyidən azad edilməsi şəhər ictimaiyyətinin narazılığına səbəb olmuşdur.Şəhər icmasının başçısı (городской староста) Cəfərqulu

---

[46] Sidqi M. T, Əsərləri, Bakı: Çaşıoğlu, 2004, -274 s.

xan Naxçıvanski və məktəbin fəxri nəzarətçisi Bəhrəm xan Naxçıvanskinin İrəvan quberniyasının xalq məktəbləri inspektoruna 19 avqust 1900-cu il tarixli məktubu şəhər ictimaiyyətinin narahatlığının ifadəsi idi. Məktubda xahiş edilirdı ki, Məşədi Tağı Səfərovun Ordubad şəhərində yeni açılmış rus-Azərbaycan məktəbinə müdir vəzifəsinə köçürülməsinə razılıq verilsin[47].

M.T.Sidqinin özü də İrəvana, Tiflisə, Bakıya, yaxud heç olmazsa Ordubada getməyi qərarlaşdırmışdı[48].

"Məktəbi Tərbiyə"nin binası şəhər əhalisinin hesabına, qismən də digər ianələr vasitəsi ilə qurulmuşdu. Came məscidinin həyətində tikilmiş dörd otaqdan ibarət məktəb binası 1896-cı ildə hazır olmuşdur. May ayının 14-də məktəbin yeni binaya köçürülməsi ilə əlaqədar təntənəli şəkildə açılış olmuşdur.Böyük messanat Hacı Zeynalabdin Tağıyev də məktəbin bölgədəki maarifçilik işinə verdiyi faydaya biganə qalmamış, məktəbin yeni uğurlara nail olması naminə gümüş pulla 1.000 rubl ianə göndərmişdir[49].

Məktəbin nəzarətçiləri regionun tanınmış mmüəllimlərdən təşkil olunurdu. Mirzə Ələkbər Süleymanov, Cəlil Mirzəyev, Məmməd bəy Zamanbəyovun müxtəlif illərdə nəzarətçi-müdir kimi fəaliyyəti məktəbin nüfuzunun əhali arasında artmasınxeyli dərəcədə təsir etmişdi. Mirzə Həbib Yusifov on beş ilə yaxın bir dövr ərzində şəriət fənni üzrə müəllim işləmişdir. Müəllim Tatyana İvanovna Dudik isə rus dilini tədris etmişdir. Bu illər ərzində Naxçıvan rus-Azərbaycan oğlan məktəbinin fəxri nəzarətçisi Cəfərqulu xan Naxçıvanski olmuşdur M.T.Sidqi tərəfindən əsası qoyulmuş "Tərbiyə məktəbi" Naxçıvan diyarında ictimai-pedaqoji hərəkatın inkişafında, sonrakı ictimai-mədəni həyatın dirçəlişində özünəməxsus yeri və mövqeyi olan təhsil müəssisəsi olmuşdur. M.T.Sidqi milli təhsilmizin,ana dili məktəblərinin yaradıcılarından biri kimi şöhrət zirvəsinə ucalmışdır."Məktəbi-Tərbiyə"nin layiqli varisi kimi Naxçıvan ikisinifli rus - Azərbaycan oğlan məktəbi

---

[47] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, f.26, s.1, iş 25/26, v.89-90
[48] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, f.26, s.1, iş 30/31,v.6
[49] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, f.26, s.1, iş 25/26,v.2

bölgədəki məktəb təhsili tarixinin çox zəruri bir həlqəsi hesab edilməli və onun təhsil mədəniyyətimizin qiymətli səhifələri kimi yeri və mövqeyi tarixi-pedaqoji tədqiqatlarda daha mükəmməl və hərtərəfli şəkildə öyrənilməlidir.

Dördüncü fəslin ikinci paraqrafı ”**Qadın təhsili uğrunda mübarizə və Naxçıvan rus-Azərbaycan qız məktəbi”** adlanır. Göstərilir ki, XIX əsrdə Naxçıvanda yüksək təhsilli ziyalılar da qadın-ananın tərbiyə olunmasına, müasir, yeniləşmiş ailə modelinin yaranmasına xüsusi səylə çalışırdılar. İstər Cəlil Məmmədquluzadənin, istərsə də Məhəmməd Tağı Sidqinin qızların təhsili sahəsində gördüyü işlər bölgədə ilk təşəbbüslər idi. Lakin bu təşəbbüsləri qızlar üçün sistemli tədris müəssisəsi hesab etmək olmaz. Çünki hər iki maarif fədaisi oğlanlar üçün nəzərdə tutulmuş məktəblərin yanında çox az bir sayda qızların təhsilə cəlb edilməsinə nail ola bilmişdilər. Və bu hal davamlı xarakter daşımamışdır.

Naxçıvanda qız məktəbinin meydana gəlməsi və fəaliyyəti XX əsrin ilk illərinə təsadüf edir.Hələ görkəmli ictimai xadim Əhməd bəy Ağayev 1901ci ildə “Kaspi” qəzetinin 5 oktyabr sayında “ Müsəlmanlar arasında qadın təhsili” məqaləsində yazırdı ki, Hacı Zeynalabdinin vəsaiti ilə Bakıda oktyabrın 7-də imperatiriçə Aleksandra Fyodrovnanın adına rus-müsəlman qız məktəbinin açılışı gözlənilir və “*...cənab Tağıyevin bu təşəbbüsü təqlid olunaraq artıq İrəvanda xüsusi rus-müsəlman məktəbi yaradılmış, Naxçıvanda isə bu cür məktəbin layihəsi işlənib hazırlanmışdır və əldən ələ gəzir...”* [50.]

Arxiv sənədləri və dövrü nəşrlərdəki statistik məlumatlar Naxçıvan rus-Azərbaycan qız məktəbinin yaranma tarixi haqqında həqiqətin müəyyənləşməsinə imkan yaradır. İlk dəfə araşdırılıb üzə çıxarılmış arxiv sənədləri əsasında qız məktəbinin 1908-1912-ci illər arasında təsis olunduğu haqqında tədqiqatlarda formalaşmış fikirlərin qeyri-dəqiq olduğunu təsdiq edir.Arxiv sənədləri məktəbin 17

[50] Агаев А. Женское образование среди мусульман. Газ. “Каспи”. Baku, 1901, 5 октября

yanvar 1904-cü ildən fəaliyyətə başladığını tarixi həqiqət kimia ifadə edir. [51]

Naxçıvan rus-Azərbaycan qız məktəbi üçün binanın inşasına aid bir sənəd xüsusi əhəmiyyətə malikdir.Bu sənəd binanın inşasına şəhər ziyalıları və əsilzadələrini düşündürən, narahat edən, onları səfərbər edən məsələ olduğu haqqında əsaslı fikir formalaşdırır.Binanın inşa edilməsinə ilk təşəbbüs hələ 1907-ci ildə olmuşdur. Həmin il şəhər əsilzadələri və ziyalıları səfərbər olub binanın tikilməsinə əhəmiyyətli səviyyədə vəsait toplaya bilmişdilər. Xeyriyyə məqsədi ilə şəhərin nüfuzlu adamlarının belə bir işə qoşulması müəyyən rəsmi razılıq əsasında həyata keçirilmişdir. Sənəddən aydın olur ki, İrəvan qubernatoru Qraf Tizenqauzen xeyriyyəçi şəxslərin siyahısı üzrə məktubla şəxsən tanış olmuşdur.Tikintinin reallaşdırılması məqsədilə əməli işlərə yalnız 1909-cu ildən başlandı. 16 yanvar 1909-cu ildə məktəbin müdiri Varvara Pavlovna Yarmaxova və Naxçıvan şəhər sakini, dövrünün maarifçi-pedaqoqlarından biri Mirzə Nəsrulla Əmirov arasında tədris müəssisəsinə bina inşa edilməsi məqsədilə "Müqavilə" ("Kontrakt") bağlandı. Müaviləyə görə,məktəbin binasının tikintişi bir il müddətinə başa çatdırılmalı idi[52].

Məktəbin fəaliyyət göstərdiyi müddət ərzində (1904-1917-ci illərdə) Mariya Fyodorovna Vlasova, Varvara Pavlovna Yarmaxova, Tatyana İvanovna Dudik, Varvara Petrovna Bendukudze kimi qadın pedaqoqlar nəzarətçi-müdir vəzifəsində işləmişlər. Araşdırdığımız arxiv sənədləində məktəbin ilk şəriət və Azərbaycan dili müəllimi kimi Molla Sadıx Əliyevin adı çəkilir. O, bu vəzifədə 1904-cü ildən 1908-ci ilədək işləmişdir. Sonrakı illərdə məktəbin Azərbaycan dili müəllimi Fatma xanım Sultanova olmuşdur. O bolgədə ilk qadın maarifçi- müəllimlərdən biri kimi tanınır. Araşdırmalar göstərir ki, Fatma xanım Sultanova Azərbaycan dili fənnini 1911-ci ilədək tədris etmiş və əlavə olaraq qızların əl işləri üzrə məşğələlərinə

---

[51] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, f.26, s.1, iş.65/66, 11 s.

[52] Naxçıvan Muxtar Respublikasının Mərkəzi Dövlət Arxivi, f.26, s.1, iş.28/29, v.40.

rəhbərlik etmişdir[53]. Naxçıvan qız məktəbinin ikinci azərbaycanlı qadın müəllimi Böyükxanım Hacıbəyova idi. O, burada 1911-ci ildən pedaqoji fəaliyyətə başlamışdır. Böyükxanım Hacıbəyova Tiflis Puşkin məktəbini bitirmiş, imtahan verərək ikisinifli ibtidai məktəb müəllimi hüququnu qazanmışdır. Böyükxanım Hacıbəyova məktəbdə Azərbaycan dili fənnini tədris edən müəllim kimi yalnız bir il fəaliyyət göstərmişdir.

Naxçıvan qız məktəbində, bölgənin ictimai-pedaqoji mühitində maarifçi pedaqoq kimi xidmətləri olan qadın müəllimlərdən biri də Nazlı xanım Tahirovadır. Nazlı xanım Naxçıvan şəhərində Mirzə Məhəmməd Tahirovun ailəsində anadan olmuşdur. 1907-ci ildə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin qız məktəbini bitirdikdən sonra İrəvana, valideynlərinin yanına qayıdır. Bir müddət İrəvanda görkəmli maarifçi Haşım bəy Nərimanbəyovun məkətbində çalışır. 1912-ci ildə ailəsi ilə birlikdə Naxçıvana qayıdır və həmin ildən Rus-Azərbaycan qız məktəbində müəllim işləyir.

Naxçıvan ikisinifli rus-Azərbaycan qız məktəbi şagird kontingentinə görə dövrünün əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur. Müqayisə üçün deyək ki, əgər Kalininanın İrəvan qız məktəbi 17 şagirdlə, Hacı Zeynalabdin Tağıyevin qız məktəbi isə 50 şagirdlə fəaliyyətə başlamışdırsa, Naxçıvan qız məktəbi ilk tədris ilinə 61 şagirdlə qədəm qoymuşdur. Məktəb sonrakı illərdə çox hallarda 100 nəfərə yaxın şagird heyyəti ilə öz işini davam etdirmişdir. Dissertasiyanın sonuncu fəsli **"XIX əsrin sonları və XX əsrin əvvəllərində Naxçıvanda təhsilin, yeni pedaqoji ideyaların yayılması və və inkişafı**"adlanır.və üç paraqrafı əhatə edir. Birinci paraqrafda "**Naxçıvanda yeni pedaqoji ideyaların yayılmasında qabaqcıl müəllimlərin rolu"**ndan bəhs olunur. Göstərilir ki, XIX əsrin sonları Naxçıvanda dünyəvi məktəblərin təsis olunması, elm və mədəniyyətin inkişafı, mədəni-maarifləndirici təsisatların (kitabxana və qiraətxanaların, teatr tamaşalarının) yaradılması uğrunda mübarizə geniş vüsət aldı. Artıq bu dövrdə Naxçıvanda maarifçi hərəkatın böyük bir dəstəsi yetişmişdi. Bu maarifçi ziyalılardan adı Naxçıvanda məktəb təhsili təcrübəsi ilə bilavasitə bağlı olan Mirzə

---

[53] Yenə orada s. 140-141

Sadıx Quliyev, Əlimәmmәd Xәlilov, Mәmmәd bәy Qazıyev, Əbülqasım Sultanov, Mirzә Əlәkbәr Süleymanov, Sadıq Xәlilov, Rәhim Xәlilov, Əlәsgәr Şeyxhәsәnov, Əlәsgәr Abbasov, Molla Mәmmәdqulu Qazıyev, Kәrbalayı Cәfәralı Adıgözәlov, Mirzә Cәlil Şürbi, Mәmmәdәli Sidqi Sәfәrov, Kәrim bәy İsmayılov, Mirzә Nәsurulla Əmirov, Mәmmәd Zamanbәyov, Rәhim Kazımbәyov, Mәhәmmәd Rәsizadә, Əlirza Rәsizadә, Hәsәn Qazıyev vә bir çox başqaları bölgәnin tәhsil tarixinin şәrәf dolu sәhifәlәrini yazmışlar. Onlar yalnız pedaqoji fәaliyyәti ilә deyil, dövlәt idarәlәri üçün zәruri dәftәrxana xidmәtçiliyindә (tәrcümәçilik, işgüzar yazışmalar, müxtәlif mәzmunlu әrizәlәrin yazılması), xalqın ehtiyaclarının ödәnilmәsi mәqsәdilә mirzәlik, vәkil-hüquqşünaslıq, әdәbi-mәdәni tәdbirlәr (kitabxanaçılıq, qәzetçilik, teatr) sahәsindә dә fәaliyyәt göstәrmәklә hәqiqi tәcrübi maarifçi nümunәsi göstәrirdilәr. Bu pedaqoqlardan bir qismi elmi vә jurnalistik fәaliyyәti ilә dә mәşğul olurdular ki, onların nәşr etdiklәri mәqalәlәr, kitablar, әlyazmaları bölgәnin bәhs olunan dövrünün öyrәnilmәsi sahәsindә çox әhәmiyyәtli mәnbәlәr kimi indi dә qiymәtini, dәyәrini qoruyub saxlamaqdadır.

Qeyd edәk ki, bu tәcrübi pedaqoqlar, mәktәbdar müәllimlәr haqqında bir sıra tәdqiqatlarda müәyyәn sәviyyәdә bәhs olunmuşdur. Lakin bununla belә arxiv sәnәdlәri vә dövrü nәşrlәr әsasında müәyyәnlәşdirmәk olur ki, qabaqcıl praktik müәllimlәrin pedaqoji vә maaarifçi fәaliyyәti ilә bağlı öyrәnilmәmiş sәhifәlәr, dәqiqlәşdirilmәmiş mәqamlar var. Ona görә dә әldә etdiyimiz faktlar әsasında bu maarifçi-müәllimlәrin bir çoxunun pedaqoji fәaliyyәtini müәyyәnlәşdirmәk, digәr bir qismi haqqında yeni, indiyәdәk araşdırılmamış sәnәdlәr әsasında tәrcümeyi-hal xarakterli mәlumatlar vermәk işinә sәy göstәrmişik ki, dissertasiyada bu haqda geniş vә hәrtәrәfli bәhs olunmuşdur. Xüsusi ilә Şeyx Mәhәmmәd Rasizadә, Əlirza Rasizadә, Mirzә Mәhәmmәd bәy Zamanbәyovun vә başqalarının hәyatı vә fәaliyyәti haqqında yeni sәnәdlәr aşkar edilәrәk elmi fikrә çatdırılmışdır.

XIX vә XX әsrin әvvәllәrindә bölgәnin maarifçi mühitinin ziyalıları içәrisindә Eynәli bәy Sultanovun vә Qurbanәli Şәrifzadәnin xüsusi yeri vә mövqeyi olmuşdur. Bu maarifçi ziyalılar Naxçıvan

ictimai-mədəni mühitinin meydana gəlməsi və inkişafında ideya qaynağı, əməli-təcrübi fəaliyyət nümunəsi göstərmişlər. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və başqaları bu maarifçi ziyalıların xalqa xidmət fəlsəfəsindən bəhrələnmiş, özlərinin sonrakı fəaliyyət sahələrinin qurulmasında, uğrunda mübarizə apardıqları ideahların seçimində bu təcrübədən faydalanmışlar. Eynəli bəy Sultanov və Qurbanəli Şərifzadə Naxçıvan içtimai-mədəni mühitinin formalaşmasında yaxından iştirak etməklə yanaşı, Qafqazın ictimai-mədəni mühitinin fəal iştirakçılarından olmuş, Naxçıvan mühitinin problemlərini Azərbaycan, Qafqaz ictimai-mədəni həyatının problemləri və uğurları səviyyəsinə qaldırmış və həlli yollarını müəyyənləşdirməyə səy göstərmişlər. Belə bir dərin ictimai məzmuna malik qabaqcıl baxışların öyrənilməsi də tədqiqat zamanı diqqətdə saxlanılmışdır.

Bəhs olunan dövrdə Naxçıvan ictimai-pedaqoji mühitinin, həmçinin bütün Azərbaycan pedaqogikasının və təhsilinin böyük yaradıcılarından biri də Məhəmməd Tağı Sidqi olmuşdur. Məhəmməd Tağı Sidqi müasir Azərbaycan ədəbi-mədəni, fəlsəfi-etik, pedaqoji-psixoloji fikrində həmişə yad edilən, tədqiqatlarda həyat və yaradıcılıq yolu öyrənilən görkəmlı ziyalı, tanınmış maarifçilərdən biridir. Onun bütün fəaliyyəti Naxçıvanla bağlı olmuş, Azərbaycan pedaqogikasının, məktəb təhsilinin parlaq ulduzu kimi işığı, nuru məhz bu diyardan ölkənin digər bölgələrinə səpələnmişdir. Bu xalq ziyalısı zəmanəsinin ictimai düşüncəsinin inkişafında mühüm xidmətlər göstərmiş, bir maarifçi kimi "hamıdan huşyar" (Cəlil Məmmədquluzadə) olduğunu nümayiş etdirə bilmişdir. M.T.Sidqinin yeni pedaqoji düşüncənin görkəmli nümayəndələrindən biri, qızğın təbliğatçılarından olması, təcrübi-pedaqoji işlərini yeni üsullar, qaydalar əsasında qurmağı bacarması Azərbaycan pedaqogikasında uğurlu bir hadisə, mütərəqqi məzmun istiqamətinə malik mərhələ idi..M.T.Sidqi məhz bu ali məqsədlərə görə Azərbaycanın qabaqcıl düşüncə sahibləri Rəşid bəy Əfəndiyevin, Nəriman Nərimanovun və Sultan Məcid Qənizadənin diqqətini çəkmişdir. Onlar Sidqinin işığa döğru yolçuluğunu davam etdirməyə səsləmişlər. Ona görə də keçmişin təcrübəsini aktuallaşdırmaq, yəni Sidqini bu günün prizmasından öyrənib

qiymətləndirmək, məktəbdarlıq və yaradıcılıq fəaliyyətinin əsas istiqamətlərini bütün gerçəkliyi ilə üzə çıxarmaq olduqca vacib məsələdir. Dissertasiyada M.T.Sidqinin pedaqoji irsi və təcrübi fəaliyyətinin əsaslı, elmi şəkildə işıqlandırılmasına səy göstərilmişdir..

Beşinci fəslin ikinci paraqrafı **”Görkəmli maarifçi-pedaqoqların Naxçıvanda ictimai - pedaqoji mühitin inkişafına təsiri“** kimi müəyyənləşdirilmişdir.XIX əsri sonu və XX əsrin əvvəllərində Naxçıvanda təhsilin, ictimai-pedaqoji fikrin inkişafında tanınmış Azərbaycan siyalıları R.Əfəndiyev, N.Nərimanov, S.M.Qənizadə, Ü.Hacıbəyov və başqalarının bu və ya digər şəkildə əməyi, xidmətləri olmuşdur. Rəşid bəy Əfəndiyev özünün bilavasitə rəhbərliyi altında 1918-ci ildə Naxçıvanda ibtidai məktəblər üçün müəllim hazırlığına kömək məqsədilə kurslar təşkil etmiş, mühazirələr oxumuşdur. Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyov kimi ictimai-mədəni fikrimizin böyük simaları bölgədə milli oyanış, təhsil sahəsində hər hansı bir yeniliyi diqqətlə izləmiş, burada baş verən inkişaf əlamətini, tərəqqi meyllərini müdafiə etməklə yanaşı, bu prosesin ardıcıl və davamlı olması üçün səylərini əsirgəməmişlər.Belə bir cəhəti göstərmək lazımdır ki, Azərbaycanda milli dirçəliş uğrunda gedən mübarizə Naxçıvanda ictimai fikrin inkişafına təsirsiz qalmamışdı. Bölgədə yaşayıb fəaliyyət göstərən ziyalı zümrəsi, müəllimlər ölkədə, ümumən Qafqazda azərbaycanlı mütəfəkkirlərin, pedaqoqların fikir və düşüncələrindən, yeni mahiyyətə və məzmuna malik təcrübələrindən, bir sözlə mübarizə amallarından bəhrələnmişlər.

Naxçıvanda milli şüurun, ictimai fikrin və təhsilin inkişafına təsir edən, burada qabaqcıl ictimai-pedaqoji ideyaların yayılmasına səy göstərən maarifçilər sırasında Məhəmməd ağa Şahtaxtlını, Cəlil Məmmədquluzadəni, Hüseyn Cavidi və digərlərini adlarını göstərmək olar. Bu maarifçilər Naxçıvanda doğulmuş, ilk təhsilini burada almış, gənclik illəri bölgənin ictimai həyatı ilə bilavasiə bağlı olmuşdur. Onların elmi, ədəbi, pedaqoji fəaliyyətinin ilk dövrləri doğulub boya-başa çatdığı bölgədə formalaşmışdır. Böyük Mirzə Cəlilin mütəfəkkircəsinə söylədiyi kimi “huşyar dostlar” bu gəncliyin sonralar görkəmli maarifçi, yazıçı, publisist kimi

yetişməsinə təsir göstərmiş, ideya-əqidəcə yetişməsində dərin izlər, pozulmaz nəqşlər salmışlar.Cəlil Məmmədquluzadə Uluxanlı məktəbindən sonra Cəlilkənd və Nehrəm məktəbində təkcə pedaqoji fəaliyyətlə məşğul olmur, eyni zamanda əhalinin maariflənməsi yolunda işlər görürdü.. Hüseyn Cavid Gəncə, Tiflis, Bakıdan əvvəl Naxçıvanda müəllim işləmişdir.Mütəfəkkir şair  Naxçıvanla daima maraqlanmış, burada gedən prosesləri həmişə izləməyə çalışmışdır.

Bu maarifçilərin fəaliyyətlərinin bölgə üçün əhəmiyyətli edən xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, hələ Naxçıvanda ikən tanıdıqları istedadlı gəncləri İrəvana, Tiflisə, Bakıya cəlb etməklə onları Azərbaycan və Qafqaz maarifçi hərakatına qoşmağa səy göstərmişlər. Məhəmməd ağa bölgənin qabaqcıl ziyalıları kimi Məhəmməd Tağı Sidqiyə, Cəlil Məmmədquluzadəyə və başqalarına əməli köməklik göstərmiş və mənəvi dayaq olmuşdur. Cəlil Məmmədquluzadə Əliqulu Qəmküsar, Məhəmmədəli Sidqi və baqalarının daha geniş ictimai-mədəni mühitdə iştirakçı olmasına bilavasitə köməklik göstərmişdir. Başlıcası odur ki, bu maarifçilər bölgədən kənarda yaşayıb fəaliyyət göstərsələr də, bölgənin həyatı ilə həmişə maraqanmış, ictimai-mədəni prosesləri daima izləmiş, buradakı inkişafın, qabaqcıl meyllərin ideya-əməli cəhətdən düzgün istiqamətlənməsinə əsaslı təsir göstərmişlər.

Məhəmməd ağa Şahtaxtlı Azərbaycan xalqının yetişdirdiyi böyük ziyalılardan biridir. Onun adı tarixə dilçi alim, yeni məktəb, yeni əlifba ideyasının təbliğatçısı,  XX əsrdə Azərbaycan dilində ilk qəzetin naşiri, dövrünün məşhur publisisti kimi dümüşdür. Xalqın bütün təbəqələrinin təhsillə əhatə olunması naminə zəruri vasitə və imkanlar kimi Məhəmməd ağa Mirzə Fətəli Axundovdan sonra ərəb əlifbasının təlimdə doğurduğu maneələrin aradan qaldırılması yolunda mübarizə aparmış ikinci böyük şəxsiyyət idi. Onun əski əlifbaya münasibəti dilçi alimin mövqelərini və baxışlarını əks etdirən münasibət idi. O, Rus və Avropa şərqşünaslığında dilçi alim, şərqşünas kimi tanınmışdır. Təhsilinin bütün mərhələləri Avropa və rus pedaqogikasının qabaqcıl nailiyyətləri ilə bağlı olduğundan Məhəmməd ağanı Qərb modernizminin, Qərb maarifçiliyinin Azərbaycanda yayılmasının qüdrətli, möhtəşəm siması kimi qiymətləndirməyə imkan verir. M.Şahtaxtlı Qərb mədəniyyətində

gedən yenilik proseslərini bilavasitə müşahidə etməklə özü də bu prosesin iştirakçısına çevrilmişdi. Onu digər ziyalılarımızdan fərqləndirən xüsusiyyət Qərb mədəniyyətini, maarifçiliyini elə Qərbin özündə öyrənməsi, burada elmi və publisistik fəaliyyətlə məşğul olmasında idi.O zəhməti və istedadı bahasına mənimsədiyi maarifçi ideyaları Naxçıvandakı yeniliyə can atan gənclərlə bölüşür, onların maarifçi-ziyalı kimi yetişməsinə səy və qüvvəsini əsirgəmirdi.

Dahi Mirzə Cəlil ictimai-pedaqoji fikir tariximizdə sistemli pedaqoji təhsil görmüş, dövrünün qabaqcıl pedaqoji fikrini mənimsəmiş, təhsil sahəsində yeniliklərin və uğurlu təcrübənin fəal iştirakçısı və qızğın təbliğatçılarından biri kimi tanınmışdır. *"Azərbaycanın tərəqqipərvər nümayəndələri sırasında Cəlil Məmmədquluzadə ən görkəmli simalardan, əsl mənada bütün ömrünü xalqın xeyrinə, cəhalət və avamlıqdan xilas olmasına sərf etmiş ictimai xadimlərdən biridir. Onun zəngin, demokratik pedaqoji irsini, təlim-tərbiyə haqqında mütərəqqi fikirlərini tədqiq edib sistemləşdirilmiş şəkildə Azərbaycan xalqına çatdırmaq olduqca faydalıişdir"* [54] . Həqiqətən də böyük Cəlil Məmmədquluzadənin bədii, publisistik irsi ilə yanaşı, maarifçi-pedaqoji baxışları da öyrənilməyə, müasir şəraitdə necə bir əhəmiyyətə malik olduğunu müəyyənləşdirməyə, bu ideya, əməli-təcrübi sərvətdən indiki zamanda istifadə imkanlarını aşkar etməyə, dəqiqləşdirməyə ehtiyac var.

Mirzə Cəlil məktəbdə həyati, zamanın tələblərinə cavab verəcək biliklərin verilməsi, təhsildə dünyəviliyin əsas götürülməsi, hər iki cinsdən olan uşaqların tədris-tərbiyə işləri ilə əhatə olunması, yüksək mənəvi keyfiyyətlərə yiyələnmiş vətəndaşların tərbiyə edilməsi və s. vacib pedaqoji problemlərin qoyuluşu və həlli yollarını müəyyənləşdirməyə xüsusi diqqət göstərən pedaqoqlardan biridir. Məktəbdə demokratizmi və humanist münasibətləri yaymaq, tədris prosesində yeni pedaqoji üsul və vasitələrdən istifadə etmək kimi yüksək, ali tələblər Cəlil Məmmədquluzadənin bütün fəaliyyəti

---

[54] Seyidov Ə. Y. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı: Maarif, 1987, s.251

boyu qoruduğu, müdafiə etdiyi prinsiplər idi. Böyüdüyü, boya-başa çatdığı mühitdə ruhaniliyin və ruhanilərin heç nə ilə tənzimləməyən, qadağa və məhdudiyyətlər qoyulmayan fəaliyyətinə, heç bir ölçüyə sığmayan hərəkətlərinə Mirzə Cəlil qədər kəskin tənqidi münasibət göstərən ikinci bir pedaqoq tapmaq çətindir.

Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycan maarifçilərinin Vətən və xalq məfumu daha da konkretləşir, azərbaycançılıq ideologiyası səviyyəsinə yüksəlir. Azərbaycanın haralardan ibarət olduğunu, Vətənin haradan başlandığını kütləyə başa salmaq, onda bu ruhu dirçəltmək, yetişən nəsildə vətənpərvərlik keyfiyyətləri formalaşdırmaq Mirzə Cəlil irsində qabarıq şəkildə əks olunurdu.

Mütəfəkkir şair-dramaturq Hüseyn Cavidin romantika ilə süslənmiş bədii sənət nümunələri insanın mənəvi aləminin, əxlaqi keyfiyyətlərinin elə ali xüsusiyyətlərini özündə təzahür etdirirdi ki, bu ali xüsusiyyətlər ümumbəşəri məhəbbət hissi, ümum insan sevgisi kimi ali məna daşıyırdı. Bütün maarifçilər kimi Caviddə cəmiyyət həyatında cəhalətin, mövhumatın böyük bəla olduğunu görür və xalqa göstərirdi. Həm ədəbi, həm də publisistik əsərlərində geriliyin, qəflətin səbəbini savadsızlıqla, elmsizliklə əlaqələndirir, buna qarşı mübarizəni hamılıqla aparmağı lazım bilirdi.

Cavid ədəbi aradıcılığında hər nə qədər romantikdirsə, publisistkasında, maarif və məktəblə bağlı məqalələrində bir o qədər realistdir, həyatidir.Cavid təhsil sistemində ilkin həlqə, mərhələ kimi ibtidai məktəbin yerini çox yüksək qiymətləndirir, bu fikrini inkişaf etmiş ölkələrin-Almaniya və Yaponiyanın nümunəsində təsdiq etməyə, sübuta yetirməyə çalışırdı. Cavid göstərirdi ki, məktəb xalqın hər bir üzvünü əsl vətəndaş, vətənpərvər insan kimi, fəal şəxslər kimi formalaşdırmağı özünün ali məqsədi bilməlidir.Şairin "Həsbi-hal" silsilə yazılarının hər birini ayrılıqda sırf pedaqoji oçerk kimi qiymətləndirmək olar.

Bütövlükdə M. Şahtaxtlı, C.Məmməquluzadə və H.Cavidin maarifçi-pedaqoji görüşləri və fəaliyyəti zəngin bir xəzinədir. Bu xəzinəni Naxçıvan pedaqoji mühitinin, təhsil məkanının problemlərini əks etdirən mənbə kimi dəyərləndirmək olar. Xalqımızın böyük mütəfəkkirləri kimi onların yaratdığı xəzinənin

tərbiyəyə, təlimə dair məzmun istiqamətinə aid yeni-yeni, daha dərin və hərtərəfli tədqiqatlar aparılmasını günümüz aktuallaşdırır.Ona görə ki, bu mütəfəkkirlərin seçdiyi yoldan,uğrunda mübarizə apardığı amallarından fadalanmalı, çox şey öyrənməliyik.

Dissertasiyanın beşinci fəslinin üçüncü paraqrafı bəhs etdiyimiz problemin çox mürəkkəb və ziddiyyətlərlə dolu dövrünə - **"Muxtariyyat ərəfəsi və muxtariyyatdan sonrakı ilk illərdə Naxçıvanda məktəb və pedaqogika"** məsələlərinə həsr olunmuşdur. Göstərilir ki, 1918-1924-cü illərdə Naxçıvan diyarı özünün çox ziddiyyətli və mürəkkəb bir dövrünü yaşamışdır. *"Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları şəraitində Naxçıvan məktəbləri də demək olar ki, tamamilə bağlanmış, məktəb binaları kazarmalara, xəstəxanalara və yaxud qaçqınlar üçün sığınacaqlara çevrilmişdi"*[55]. Belə bir vəziyyət mövcud məktəb şəbəkəsinin azalmasına, şagird kontingentinin xeyli dərəcədə aşağı düşməsinə, təlim-tərbiyə işlərinin zəifləməsinə səbəb olmuşdur.

Təhsilin iflic vəziyyətinə düşməsi bu sahə üzrə dövrün statistik təsvirlərində dəqiq olmayan məlumatların yer almasına şərait yaratmışdır. Ayrı-ayrı tədqiqatlarda arxiv materiallarına əsaslanaraq göstərilən məlumatların, statistik rəqəmlərin təzadlı mənzərəsi tez-tez müşahidə olunur ki, bu haqda dissertasiyada bəhs olunmuşdur.Onu da qeyd edək ki, arxiv sənədlərindəki bu uyğunzuluqlar bir sıra obyektiv və subyektiv amillərlə bağlı olmuşdur. Diyarın qarşılaşdığı siyasi və iqtisadi çətinliklər, mərkəzi hökumətin faktik olaraq bu çətinlikləri aradan qaldırmaq iqtidarına malik olmaması, məktəblərin maddi-texniki bazasının zəifliyi, tədris ləvazimatlarının çatışmazlığı, müəllim kadrlarının azlığı və s. bu kimi səbəblərdən mövcud məktəblər fasilələrlə işləmiş, hətta bir çox məktəblər öz fəaliyyətini dayandırmalı olmuşdur. Məhz belə bir vəziyyət mənbələrdə qeyri-dəqiq, stabil olmayan məlumat və rəqəmlərin yer almasına şərait yaratmışdır.

---

[55] Sadiqov S.H. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: İrşad mərkəzi, 1995, 48 s

Çarizmin devrilməsi Azərbaycanda milli mənafeylərə istiqamətlənmiş siyasi-ideoloji hərəkatın güclənməsinə şərait yaratdı. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının yarandığı elan olundu. Ölkənin ictimai-siyasi həyatındakı bu dəyişikliyin bölgəyə təsiri daha qüvvətli olmuşdur.Lakin bu çox mürəkkəb ictimai- siyasi şəraitlə bağlı belə bir həqiqət də var ki, *"Naxçıvan Milli Komitəsi Azərbacan Xalq Cümhuriyyəti yarandığı gündən onunla birləşməyə hazır olduğunu bildirsə də, yaranmış siyasi və beynəlxalq vəziyyət xalqın bu arzusunu həyata keçirməyə imkan verməmişdi"*[56]. Bu dövrdə müxtəlif adda, müxtəlif məzmuna malik tədris müəssisələri fəaliyyət göstərmişdi. Bu tədris müəssisələrini üç böyük qrupda birləşdirmək mümkündür. Birinci qrupa rus dövləti tərəfindən yaradılmış və. yeni şəraitdə fəaliyyətini davam etdirən təhsil müəssisələrini daxil etmək olar.

Bəhs olunan dövrdə məktəb təhsili üçün səciyyəvi xüsusiyyət kimi dövrün qabaqcıl pedaqoji ideyalarını və milli tərbiyə ənənələrini özündə birləşdirən ana dili məktəblərinin meydana gəlməsi və inkişafı idi. Bu qrupa aid olan məktəblər dövrün qabaqcıl pedaqoji ideyalarını və mütərəqqi məzmuna malik milli tərbiyə ənənələrini özündə birləşdirən tədris ocaqları idi.Bu tədris müəssisələri M T. Sidqinin adı ilə bağlıdır.

XX əsrin əvvəllərində təhsil müəssisələri kimi, Naxçıvan şəhərində "Xeyriyyə" məktəbinin, Naxçıvanda və həmçinin Ordubadda "Rüşdiyyə" və "Edadiyyə" məktəblərinin fəaliyyətini göstərmək olar. Tədqiqatlarda bu tədris müəssisələrinin məzmunu, strukturu, verdiyi səmərə haqqında fikir və mülahizələr çoxlu sullar doğururdu. İlk mənbələrə, həqiqi elmi faktlara, arxiv sənədlərinə əsaslanma olmadığına görə bu tip tədris müəssisələrinin varlığı bir çox cəhətdən şübhə doğururdu. Bu tədris ocaqlarının yarandığı ilk illərdə hökumətin maarif məmurları belə "Xeyriyyə" anlayışı altında nəyin nəzərdə tutulduğunu müəyyənləşdirə bilməmişdi.

---

[56] Baxşəliyev V. B. Naxçıvan Milli Komitəsinin müstəqillik uğrunda mübarizəsi,"Şərq qapısı". Naxçıvan, 2014, 29 yanvar

Araşdırmalarımızın nəticəsi kimi Muxtar Respublikanın Dövlət Arxivində saxlanılan "О Нахичеванском русско-татарском училишъ при мектебе "Хейрия" adlı 78 vərəqlik sənəddən aydın olur ki, "Xeyriyyə" məktəbi şəhərin nüfuzlu şəxslərindən ibarət komissiya tərəfindən 22 aprel 1911-ci ildə yaradılmışdır.[57]

Bu sənəddə İrəvan qubernatoruna komissiya üzvlərinin 24 may 1912-ci il tarixli məruzəsi də saxlanılır. Məruzə"Xeyriyyə" məktəbi, onun məzmun-strukturu haqqında nisbətən ətraflı məlumat əldə etməyə imkan verir.

Beləliklə, axtarışlar nəticəsinədə "Xeyriyyə" məktəbinə işıq salmaq mümkün oldu. Dissertasiyada bu barədə ətraflı bəhs olunmuşdur.

Araşdırmalar bu məktəbin 1922-ci ilə kimi fəaliyyət göstərdiyini təsdiqləyir.

1922-ci ilə aid bir sənəddə göstərilir:

1. *23 oktyabr 1922-ci il. Naxçıvan şəhərində mövcud Rüşdiyyə və Xeyriyyə məktəbləri birləşdirilib. I dərəcəli məktəb namını aldığına görə Xeyriyyə məktəbində müdirlik vəzifəsi ləğv olunur.*

*2. Xeyriyyə məktəbində müdirlik vəzifəsi ləğv olunduğundan məktəbin müdiri Şeyx Məhəmməd Rasizadə 23 oktyabrdan həmin məktəbdə (I dərəcəli məktəbdə-V.R.) müəllim işləyəcəkdir.*

*3. Xeyriyyə məktəbinin müəllimi Asəf Atakişiyev Xeyriyyə məktəbi müəllimliyindən azad olunub Naxçıvan qəzasının Bənənyar məktəbinə müdir təyin olunur"*[58].

Naxçıvanda sovet hakimiyyətinin qurulmasından dərhal sonra məktəblərin quruluşu və məzmununda əsaslı dəyişikliklər edildi. Ümumtəhsil məktəbləri bütün sovetlər ölkəsində olduğu kimi iki dərəcəyə ayrılırdı. Birinci dərəcəli məktəblər təhsil müddəti dörd il olmaqla ibtidai məktəb kimi nəzərdə tutulmuşdu. İkinci dərəcəl məktəblər ümumi təhsilin yüksək pilləsi hesab olunurdu. Burada təhsil müddəti 5 il idi. Bu dövrdə bölgənin təhsil tarixi üçün

---

[57]Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 1, iş 38/39,s.40

[58] Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 2, iş 5, 18 s

əlamətdar hadisələrdən biri 1922-ci ildə baş tutdu. Bu dövrdə bölgədə ilk dəfə olaraq qızlarla oğlanların birgə təhsil alması həyata keçirildi. Bölgə müəllimlərinin qurultayında qızların təhsilinin vəziyyətinə aid məruzəçi, dövrünün tanınmış maarifçisi Əbdüləzim Rüstəmova tapşırıldı ki, tezliklə Naxçıvan şəhərində qızlarla oğlanların birgə təhsil alması məqsədilə iki birinci dərəcəli məktəbin təşkilinə başlasın. Bu hadisə bölgənin məktəb tarixi sahəsində yeni bir mərhələnin başlanğıcı idi.

Bu dövrdə yeni yaranan məktəblərin müəllim kadrlarına ehtiyacını təmin etmək məsələsi də gündəmə gəldi. Bu məsələ 1922-ci ilin avqust ayının 28-də öz işinə başlayan Naxçıvan müəlimlərinin birinci qurultayında qoyulmuşdur. Təxminən iki ay sonra 1922-ci ilin noyabr ayının 1-də Naxçıvan Xalq Maarif Komissarlığının iclasında Naxçıvan şəhərində müəllimlər seminariyası yaradılması məsələsinə yenidən baxılır və müəyyən addımlar elə bu iclasda atılır. İclasda seminariyanın müdiri, onun müavinləri və müəllimlər təyin olunur. Təhsil müəssisəsinə rəhbərlik Qori seminariyasını və Tiflis Aleksandr Müəllimlər institutunun tam kursunu bitirmiş Xəlil Hacılarova tapşırılır. Həmçinin qərara alınır ki, seminariyanın fəaliyyəti üçün bütün əsas tədbirlər on gün ərzində başa çatdırılsın. Beləliklə, Naxçıvan pedaqoji texnikumu 1922-ci ilin noyabr ayının 10-da öz işinə başlayır.1939-ci ilədək fəaliyyət göstərən texnikumun Naxçıvanda maarifin və pedaqoji kadrların ilk dəstəsinin hazırlanmasında xidmətləri əvəzsizdir. Dissertasiyada texnikumun struktur-məzmunu haqqında geniş məlumat verilmişdir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verdi:

1.Naxçıvanın müstəmləkə torpaqları kimi Rusiya tərkibinə qatıldığı dövrdən burada fəaliyyət göstərən dövlət təhsil müəssisələri məzmununa və strukturuna görə çox mürəkkəb olsa da regionun təhsil tarixində yeni əlamət və keyfiyyətlərlə zəngin olan bir mərhələ olmuşdur. Çarizm özünün müstəmləkə siyasətini həyata keçirmək üçün təsis etdiyi məktəblər vasitəsilə müəyyən mənada bölgədə təhsil sisteminin təməlini, əsasını qoydu. Bu təhsil müəssisələri nizamnamələr əsasında idarə olunan məktəblər kimi regionda dövrünün qabaqcıl görüşləri ilə silahlanmış ziyalılar dəstəsi yetirmişdi.

2. XIX əsr və XX əsrin əvvəllərində Naxçıvan bölgəsində məktəb təhsilinin və pedaqoji fikrin inkişafı başlıca olaraq, aşağıdakı istiqamətdə olmuşdur:

a) yeni tipli dünyəvi ümumtəhsil məktəblərinin yaradılması sahəsində;

b) milli məktəblərin (M.T.Sidqinin "Əxtər" və "Məktəbi tərbiyə"si, rus-Azərbaycan" məktəblərinin) yaradılması istiqamətində;

c) dərslik, dərs vəsaitləri, tədris planı, proqramlar və digər tədris-təchizat vasitələrinin hazırlanması sahəsində .

3. Bəhs olunan dövrdə Naxçıvanda formalaşmış məktəb təhsili və pedaqoji düşüncə məzmunca aşağıdakı problemlərin həllinə xidmət göstərmişdir: a) çarizmin siyasi məqsədlərindən asılı olmayaraq, Naxçıvanda fəaliyyət göstərən təhsil müəssisələri bölgədə savadsızlığın aradan qaldırılması, dünyəvi biliklərin yayılması; b) yeni məktəblər vasitəsi ilə dünyəvi elmlərin tədrisinin genişləndirilməsi, təlimin məzmununun yeniləşdirilməsi və dərinləşdirilməsi, yeni təlim metodları, vasitə və priyomlarının istifadəsi; c) təlimin ana dilində aparılması və rus dilinin öyrədilməsinin kütləviləşdirilməsi; d) bölgədəki tədris müəssisələrinin maddi və tədris-təchizat cəhətdən vəziyyətinin yaxşılaşdırılması; e) məktəb, maarif, təlim-tədris problemlərinin həllinə kömək edən vasitələrin yaradılması və onların fəaliyyətinin tənzimlənməsi (cəmiyyətlər, hamiliklər, həmkarlıqlar, ianələr); f) təhsilin məzmununun təkmilləşdirilməsi; ğ) yüksək pedaqoji səriştəyə və elmi biliklərə sahiblənmiş, məktəb işinə ürəkdən bağlanan müəllimlərin müdafiə olunması; h) rus və Qərbi Avropa maarifçiliyinin mütərəqqi ideyalarından bəhrələnərək regionda məktəb təcrübəsi və pedaqoji fikrin inkişaf etdirilməsi.

4) Azərbaycan dilinin tədrisi üzrə müqtədir müəllim dəstəsi yetişmişdir ki, onlar sonrakı dövrlərdə tədrisin Azərbaycan dilində aparılması ideyasının reallaşdırılması işində pioner olmaq funksiyasını daşımışlar. Bölgədə Azərbaycan dilinin tədrisi sahəsində bu və ya digər səviyyədə xidməti olan müəllimlərin adları və əməlləri hörmətlə yad edilməyə layiqdir.

5) Bölgədə demokratik fikrin, humanist ideyaların yayılmasında ayrı-ayrı fənlər üzrə öyrədilən tədris materiallarının da böyük təsiri olmuşdur. Xüsusi ilə ana dilinin, həmçinin xarici dillərin öyrədilməsi zamanı istifadə olunan mətnlər tədris- təlim məqsədilə yanaşı, tərbiyə məqsədlərini-humanist və xeyirxah əməlləri, ümumiyyətlə yüksək insani keyfiyyətləri aşılamaq vasitəsi olmuşdur.

7) İlk dəfə olaraq məktəblərdə sistemli kitabxana fondunun yaradılması, burada tədris vəsaitlərinin komplektlərinin qorunub saxlanması, şagirdlərin dünya ədəbiyyatı, mədəniyyəti və elminə aid biliklərlə tanışlığına imkan yaratmışdır. Bu kitabxanalar azərbaycanlı şagirdlər içərisində rus dilinin, qismən də Avropa dillərinin öyrənilməsində də böyük rol oynamışdır.

8) Məktəb yaşlı qızların hələ XIX əsrin sonlarında Cəlil Məmmədquluzadə və Məhəmməd Tağı Sidqinin oğlan məktəblərində qızlar üçün siniflər təşkil edə bilməsi, XX əsrin ilk illərində isə ayrıca rus-Azərbaycan qız məktəbinin fəaliyyətə başlaması ölkə pedaqojisində əhəmiyyətli hadisə idi. Qız məktəbinin məzunlarının bir çoxu bölgənin ictimai-mədəni həyatında, təhsil sahəsində mühüm xidmətlər göstərmişlər.

9) Dövlət məktəblərində Qafqazda yaşayan əhali-azərbaycanlı, rus, gürcü, yəhudi və digər millətlərdən olanlar təhsil alırdı. Dövlət siyasi mənafeylərinə uyğun olaraq müəyyən silki mənafeylər istisna edilməklə şagirdlərin dini və milli mənsubiyyətinə görə təhsil alma imkanlarını məhdudlaşdırmırdı. İlk illər Naxçıvan qəza məktəbində azərbaycanlı uşaqlar şagird kotingentinin az bir qismini təşkil etsə də, sonrakı illərdə şagirdlərin sayında azərbaycanlı uşaqların artım dinamikasının ayrı-ayrı millətlərin uşaqlarının sayı ilə müqayisədə artdığı müşahidə olunur.

10) Ana dilində yeni üsullu məktəblərin yaradılmasında Məhəmməd Tağı Sidqinin “Məktəbi Tərbiyə”si unikal təcrübə idi. Böyük maarifçi Şərq və Qərb pedaqogikasının mütərəqqi ideyaları əsasında həqiqətən milli Azərbaycan məktəbi yarada bilmişdi. Bu təcrübə təkcə Naxçıvan təhsilində deyil, bütün Qafqaz mühitində geniş əks-səda doğurmuşdu.

11) Öz dövrünə görə Naxçıvanda məktəb və pedaqoji fikir faydalı məzmuna malik olmuşdur ki, bu mütərəqqi sərvətlər qədim

yurd yerlərimiz olan İrəvan bölgəsinin təhsil hərəkatı və ümummədəni mühiti ilə sıx qarşılıqlı əlaqə və təsirlər əsasında inkişaf etmişdir.

Tədqiqatdan çıxan nəticələrə görə **təklif** edirik ki:

- Qədim və zəngin maddi, mədəni və mənəvi sərvətləri ilə bu günümüzə qədər Azərbaycanın bölünməz, ayrılmaz hissəsi olan Naxçıvan diyarının təhsil tarixinin və pedaqoji fikrinin öyrənilməsi xüsusi tədqiqatlar tələb edir və bu istiqamətdə araşdırmaları genişləndirməyə, dərinləşdirməyə və möhkəmləndirməyə ehtiyac vardır. Bu sahə ilə bağlı ehtiyacın və yaranmış tələbatın ödənilməsi məqsədi ilə tədqiqatların aparılması, tədqiqatçıların səfərbər edilməsi zəruriyyəti ödənilməlidir.

-Naxçıvanda təhsilin və pedaqoji fikrin inkişaf tarixinə aid materiallardan tələbə gənclərin tədris-təlim işində ardıcıl və sistemli şəkildə istifadə edilməsi onlarda azərbaycançılıq məfkurəsinin formalaşdırılmasında fayda verər.

-Dissertasiya materialından müxtəlif məzmunlu kitabların, diyarın tarixinə aid ensiklopedik və soraq nəşrlərinin hazırlanması işində istifadə olunarsa, bu cəhət tədqiqatın nəticələrinin elmi və təbliği işinə kömək etməklə yanaşı, regionun tarixi haqqında biliklərin zənginləşməsi işinə fayda verər.

-Bu günkü gündə ermənilərin əsassız torpaq iddialarının, xəyanət və fitnəkarlıqla zəhərlənmiş xislətinin ifşası baxımından da problemin öyrənilməsi vaciblik qazanır ki, bu da tədqiqatın pedaqoji əhəmiyyəti ilə yanaşı, sosial əhəmiyyətini də təsdiq edir.

- Universitetlərin pedaqoji fakültələrində tədris olunan ”Azərbaycan məktəb və pedaqoji fikir tarixi” adlı fənnin tədrisində, xüsusi kursların təşkilində, tədris vəsaitləri və monoqrafiyaların hazırlanması işində tədqiqatın nəticələrindən istifadə oluna bilər.

- Regionun ali məktəblərinin pedaqoji yönlü ixtisaslarında “Naxçıvanda məktəb və pedaqoji fikrin tarixi” adlı xüsusi kursun təşkil edilməsi, həmçinin digər ixtisaslar üzrə xüsusi kursların (“Naxçıvan tarıxı”, “Tarixi diyarşünaslıq” və s.) tədrisi prosesində tədqiqat materialından istifadə səmərə verər.

- Kütləvi informasiya vasitələrində, televiziya və radio verlişlərində, sənədli xronikaların çəkilişində tədqiqat materialından faydalanmaq olar.

**Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Naxçıvan Müəllimlər Seminariyası, Pedaqoji Universitetin Xəbərləri (Pedaqoji, psixoloji elmlər seriyası), Bakı, N.Tusi adına ADPU,1997, №2 səh.50-56
2. M.T.Sidqi şəxsiyyətin formalaşmasında əsas amillər haqqında,"Naxçıvan" (İctimai- siyasi, ədəbi, elmi–publisistik j.).Naxçıvan, 2004.№ 12,s.137- 139
3. Qavqazda təhsil islahatları və Naxçıvanda marifçilik hərəkatı (XIX əsrin sonları, XX əsrin əvvəlləri) Uluslararası "Qafqaz xalqlarının folkloru və linqvokulturologiyası" simpoziumu, Tbilisi,18-21mart 2012,səh.134-135
4. Naxçıvanda qız təhsilinin inkişafı tarixindən, (XIX əsr və XX əsrin əvvəlləri),Naxçıvan,"Məktəb"nəşriyyatı, 2013, səh. 37
5. Qədim və Orta əsrlərdə Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafı haqqında. Naxcıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan, "Müəllim", 2014, №4, s.24-31
6. Pedaqoji fikrimizdə M. T. Sidqi mərhələsi, Məhəmməd Tağı Sidqi: taleyi və sənəti, Naxcıvan, Əcəmi, 2015, səh.148-156
7. Naxçıvan qəza məktəbinin ilk Azərbaycan dili müəllimi, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərləri", Humanitar elmlər seriyası, Naxçıvan, NDU, "Qeyrət", 2015, s.210-217
8. Muxtariyyat ərəfəsi və muxtariyyatın ilk illərində Naxçıvanda məktəb təhsilinin vəziyyətinə dair, Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq elmi konfransın materialları, Naxçıvan şəhəri, 5-6 iyun 2015-çi il,Bakı, Mütərcim, 2015,səh. 340-342
9. Tiflis Nücəba məktəbi və Azərbaycan dilinin tədrisi məsələləri, Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, "Nuh", 2015, №1, səh. 280-286
10. Naxçıvan qəza məktəbinin kitabxanası,Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, "Nuh", 2016, №1, səh.287-294

11. Ilk Azərbaycan dili müəllimlərindən biri, “Azərbaycan məktəbi” jurnalı, 2016, № 1, səh. 84-87

12. XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr, Naxçıvan, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2016,səh. 88

13. Kalbalı xan və İsmayıl xan kəngərlilərin xeyriyyəçi-maarifçi fəaliyyəti haqqında, Axtarışlar, Naxçıvan, № 3, 2016, səh.178- 184

14. Sofiya Stasyuleviçin məktəbi, Beynəlxalq elmi konfransın materialları, Naxçıvan şəhəri,25 noyabr, 2016, səh. 233-239

15.Naxçıvan qəza məktəbinin azərbaycanlı müəllimləri, Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, “Nuh”, 2016, №2, səh. 205

16. İ.İ.Şopen İrəvan və Naxçıvan bölgəsinin məktəbləri haqqında, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan, “Məktəb”, 2016, №4.s.4-8

17. Ordubad normal ibtidai məktəbi, Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, Naxçıvan, NDU, “Qeyrət”, 2017, № 1,səh.157 – 163

18. “Məktəbi Tərbiyə” və onun varisi Naxçıvan rus-Azərbaycan məktəbi, Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, “Nuh”, 2017, №2, s. 261-273

19. XIX əsrin sonları və XX əsrin əvvəllərində Naxçıvanda təhsil və redaqoji fikir,Naxçıvan, “Məktəb” nəşriyyatı, 2017, səh. 60

20. Rusiya Xalq Maarif nazirliyinin məktəb nizamnamələrində Naxçıvan qəza məktəbi, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan, “Məktəb”, 2017, № 2, s. 9-14

21. Məhəmməd ağa Şahtaxtlının pedaqoji görüşləri, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri,Naxçıvan,”Məktəb” nəşriyyatı, 2017, № 3. s.8-14

22. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri), Naxçıvan: “Əcəmi”, 2017, 262 s.

23. Уставы Министерста Народного Просвещения России и Нахичеванское уездное училище: возникновение и этапы развития,“Гілея” Науковий вісник, Київ: Видавнитцтво Гілея, 2017,Випуск 125(№ 10), с. 151-154.

24. Azərbaycan Demokratik Respublikası və sovetlər dönəminin ilk illərində Naxçıvanda təhsilin vəziyyəti, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan, NMİ ″ Məktəb” nəşriyyatı, 2017, № 4. s. 9-13

25.Ordubad şəhər məktəbi təhsil tariximizin səhifələrindən biri kimi, Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, “Nuh”, 2017, № 4, səh. 265-276

26. Cəlil Məmmədquluzadə və ictimai pedaqoji fikrimiz, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: Qeyrət, 2017, №5, s.3-7

27. Kəngərli xanlarının Naxçıvanda və İrəvanda təhsil sahəsində xidmətləri, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan, Qeyrət, 2017, №6, s.101-105

28. Azərbaycanda kənd ibtidai məktəblərinin yaranması və inkişafı tarixindən, Naxçıvan Universiteti, Elmi əsərlər, Naxçıvan, “Nuh”, 2018, № 1, s. 268-277

29. Role of the Russian intelligensia in the formation and development of the enlightenment environment in Nakhchivan (XIX century and the beginning of the XX century), British journal for social and ekonomic research, Volume 3,Issue 1, February 2018,11-15

30.Mahammad Taqhi Sidqhi’spedaqoqical heritaqe ahd his contribution in openinq of native-lanquaqe schools in Nakhchivan, Milton Studies Journal, Volume 6, Special Issue, USA-2018, 127-147

31.Rus ziyalıları və Naxçıvan maarifçilik mühiti,Naxçıvan Müəllimlərİnstitutunun Xəbərləri, Naxçıvan, “Məktəb”, 2018, № 1, s. 12-18

32. XIX əsr rus Qafqazşünaslığı məscid məktəbləri və mədrəsə təhsili haqqında (İrəvan və Naxçıvan bölgəsinin materialları əsasında), Pedaqoji Universiteet Xəbərləri,Humanitar, ictimai və pedaqoji-psxoloji elmlər seriyası, Bakı, ADPU, 2018, № 4, s.324-335

33. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri, İkinci nəşri, Naxçıvan: “Əcəmi”, 2018, 392 s.

34. İrəvan quberniyasında məscid məktəbləri və mədrəsə təhsili tarixi, “Azərbaycan və Türkiyə universitetləri:təhsil, elm,

texnologiya” I Beynəlxalq elmi-praktiki konfransının materialları, II hissə, Bakı-2019, s.122-127

35.Naxçıvanda müəllim kadrları hazırlayan ilk təhsil ocağı, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: Qeyrət, 2019, №1,s.132-134

36. Qafqazda ilk rus dövlət məktəbləri və Azərbaycan dilinin tədrisi məsələləri, Naxçıvan Müəllimlər İnstitutu, Əsərlər,Naxçıvan, Məktəb, 2021, №1, s.78-84

37. 1918-1924-cü illərdə təhsilin vəziyyəti haqqında,.”Avropa və Asiya:Minillik Qonşuluq” Qars müqaviləsinin 100 illiyinə həsr olunmuş XIX Beynəlxalq Elmi Simpozium, 30 oktyabr, 2021-ci il,Qars/Türkiyə, s.85-87

38. OnThe first Russian publik schools inthe Caucasus and the teacning ofthe Azerbaijani guage, Conrado, Revista pedaqoqica de la Universidad de Cienfueqos?Volimen17. Numero 83.Noviembre Diciembre 2021 .http//conrado. ucf.edu. cu/indek /php/conrado. P.080-085

Dissertasiyanın müdafiəsi ____ _________ 2022-ci il tarixində saat _____ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının bazasında yaradılmış BED 2.40 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Dissertasiyanın müdafiəsi 28 iyun 2022-ci il tarixində saat 11⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının bazasında yaradılmış BED 2.40 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 27 may 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

| | |
|---|---|
| Kağızın formatı: | A5 (60×90 1/16) |
| Həcm: | 103.236 |
| Tiraj: | 100 |